RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 8 (8601) CÜMƏ AXŞAMI, 14 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Biz beynəlxalq birliyin sülh yolu ilə edə bilmədiyini güc yolu ilə etdik

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də ISESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

**AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham ƏLİYEV dedi:**

- Xoş gəlmisiniz, Baş direktor.

Hörmətli qonaqlar, xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Səfəriniz üçün, işğaldan azad edilmiş əraziləri ziyarət etmək üçün vaxt tapdığınıza görə sizə çox minnətdaram. Mənə məlumat verilmişdir ki, dünən siz müharibə zamanı Azərbaycanın işğaldan azad olunmuş şəhərlərini ziyarət etmisiniz və özünüz vəziyyətin şahidi oldunuz. Hər şey tamamilə məhv edilib. Bizim bu barədə məlumatımız var idi. Çünki işğal edilmiş ərazilərdə vəziyyətlə bağlı bizdə müəyyən görüntülər var idi. Lakin səmimi desəm, biz dağıntıların bu qədər geniş vüsət almasını heç təsəvvürümüzə belə gətirə bilməzdik. Bu, onu nümayiş etdirir ki, torpaqlarımızı işğal altında saxlayan ölkə Azərbaycan mədəniyyətinin izini silmək istəyirdi. Azərbaycan xalqının irsini məhv etmək istəyirdi. Biz açıq-aydın başa düşürük ki, bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra edilmişdir. Bu, müharibə zamanı edilməmişdir, çünki müharibə zamanı bu cür dağıntıları etmək mümkün deyil. Bu, Azərbaycan xalqına məxsus hər şeyi məhv etmək və gələcəkdə azərbaycanlıların geri qayıtmasına imkan verməmək üçün işğaldan sonra edilmişdir. Bu, bir daha onu nümayiş etdirir ki, demək olar, 30 illik danışıqlar ərzində Ermənistanın yalnız bir məqsədi olmuşdur, bu da danışıqları sonsuz və faydasız etmək idi və bu da baş verdi. Çünki demək olar ki, bu 30 illik danışıqlar prosesində heç bir nəticə yox idi. Yalnız danışıqlar, yalnız səfərlər, yalnız bəyanatlar var idi, lakin heç bir nəticə yox idi. Bu da təcavüzkara işğal olunmuş ərazilərin tarixi, mədəni və dini mənşəyini dəyişməyə cəhd etmək imkanını verdi.

Qanunsuz məskunlaşma siyasəti hərbi cinayətdir və onlar işğalın son dönəmində bu siyasəti heç gizlətmirdilər belə. Onlar dünyanın müxtəlif yerlərindən erməni mənşəli insanları gətirir və onları tarixi Şuşa şəhəri də daxil olmaqla, tarixi Azərbaycan ərazilərində məskunlaşdırırdılar. Şəhər və kəndlərimizin adlarını dəyişirdilər, hətta xristian dini abidələrinin mənşəyini belə dəyişirdilər. Onlar xristian dininə ibadət edən qədim udilərin dini irsinin mənşəyini dəyişirdilər. Onlar qədim Qafqaz Albaniyasının kilsələrini erməni kilsələrinə çevirirdilər. Beləliklə, onlar cinayət predmeti olan bir çox əməllər törədiblər.

Sizin də yəqin bildiyiniz kimi, artıq Azərbaycan ziyanın qiymətləndirilməsi prosesinə başlamışdır. Yəni yaxşı tanınmış beynəlxalq şirkətlərin köməyi ilə maddi, mədəni, mənəvi, ekoloji ziyan hərtərəfli qiymətləndiriləcək və bu da bizə təcavüzkar Ermənistan dövlətini beynəlxalq məhkəmələrə vermək imkanı yaradacaq.

*Ardı 2-ci səh.*

# İlham Əliyev qalib rəhbər statusu ilə Azərbaycanın mənafeyini layiqincə təmin etdi

## Moskvada imzalanan Bəyanat ölkəmizin hərbi və siyasi qələbəsinin növbəti təcəssümü oldu

**İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. Prezident İlham Əliyevin hər zaman çıxışlarında bəyan etdiyi kimi Qarabağda ikinci erməni dövlətinin yaradılmasına imkan verilmədi. Azərbaycanın "dəmir yumruğu" Ermənistanı döyüş meydanında darmadağın etdi, işğalçıya tarixboyu unudulması mümkün olmayan dərs verdi, maddi və mənəvi zərbə vurdu.**

### Ermənistan məğlub olmağa məhkum idi

Noyabrın 10-da İlham Əliyevin şərtləri əsasında imzalanan Bəyanat Ermənistanın kapitulyasiyası kimi tarixə düşdü. Məğlubiyyətini bəyan edən rəsmi Yerevan 3 rayonu Azərbaycana döyüşsüz qaytarmağa məcbur edildi. Bu sənədi Ermənistanın baş nazirinin imzalaması, o cümlədən burada Qarabağın statusuna dair heç bir fikrin yer almaması isə ermənilərin yaratdığı qondarma respublikaya, separatçı rejimə Azərbaycan tərəfindən birdəfəlik son qoyulması deməkdir. Bütövlükdə, bu Bəyanat 44 günlük müharibəyə yekun vuran çərçivə sənədi oldu.

*Ardı 2-ci səh.*

# Yüksəliş və inkişafın Naxçıvan modeli

Naxçıvan Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biridir. Beş min il bundan əvvəl Naxçıvanda şəhər mədəniyyətinin formalaşması bu yurdda sivilizasiyanın inkişafının ən mühüm göstəricisi hesab olunur.

Naxçıvan, həm də Azərbaycanın dövlətçilik tarixinə mühüm töhfələr verən bir diyardır. Azərbaycan türkləri min illər boyu burada ardıcıl həyat sürmüş, böyük dövlətçilik ənənələrinin əsasını qoymuşlar.

Bölgədə X əsrdə "Naxçıvan şahlığı", XII əsrdə Azərbaycan Atabəylər dövləti yaranmış, XVIII-XIX əsrlərdə "Naxçıvan xanlığı", XX əsrin əvvəlində Araz-Türk Respublikası fəaliyyət göstərmişdir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan keçən dövr ərzində respublikamızın siyasi, iqtisadi və sosial həyatında mühüm dəyişikliklər baş vermiş, ölkədə sosal-siyasi sabitlik bərqərar olunmuş, dinamik iqtisadi inkişaf dövrü başlanmışdır. Naxçıvan Muxtar Respublikası ötən dövr ərzində bu inkişafın bir parçası olaraq Azərbaycanın milli dövlətçilik tarixinə və inkişafına töhfələr vermiş və verməkdə davam edir.

Ümummilli Lider Heydər Əliyev Naxçıvanla bağlı arzularını belə ifadə edirdi: *"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin".*

*Ardı 6-cı səh.*

# Dünya yenə heyran qalacaq

## Bu dəfə Qarabağı başdan-başa yenidən qurmağımıza, cənnətə döndərməyimizə

**30 ili Qarabağsız olmaq bizə olmazın ağrı-acılar, məhrumiyyətlər yaşatdı. Vətəndə qaçqına, köçkünə çevrildik, ağır və çəkilməz xəcalət yükünü uzun illər boyu daşımağa məhkum edildik. Amma üzülsək də, sızlasaq da, bircə gün də ümidsiz olmadıq. Göydə hüdudsuz qüdrət sahibi uca Allaha, yerdə dövlətimizə, bu dövləti müdrikliklə idarə edən Prezidentə - müzəffər Ali Baş Komandana, onun rəhbərlik etdiyi Ordunun qəhrəman əsgərlərinə güvəndik.**

Dövlət olması üçün torpaq verdiyimiz, süfrəmizin bol nemətlərindən pay ayırıb ac qarınlarını doyurduğumuz nankor qonşularımız ürəklərində bəslədikləri qara niyyəti, hər zaman hazırlıq gördükləri, gözlədikləri tarixi fürsət yaranan kimi Azərbaycanın dövlət idarəçiliyində yaranan xaosdan, hakimiyyət böhranından məkrlə istifadə edərək cənnət Qarabağımızı işğal etdilər.

Şəhərlərimizi, kəndlərimizi dağıdıb viran qoydular, evlərimizə od vurub yandırdılar.

*Ardı 7-ci səh.*





# "Cənub qaz dəhlizi" yeni əməkdaşlıq formatının təməlini qoyur

## Layihədə bütün iştirakçı tərəflərin maraqları təmin olunub

Keçən ilin son günü xoş bir xəbər aldıq - Azərbaycan qazı Avropaya çatdı. Bu, "Cənub qaz dəhlizi"nin sonuncu hissəsi olan TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) işə düşməsi sayəsində mümkünləşdi. TAP-ın istismara daxil olması ilə "Cənub qaz dəhlizi" tam fəaliyyətə başladı. Tarixdə ilk dəfə olaraq Azərbaycan qazı Avropaya birbaşa nəql edildi.

Bu hadisənin təkcə neft-qaz sənayemizin deyil, ümumən xalqımızın tarixində xüsusi yeri və əhəmiyyəti var. Çünki "Cənub qaz dəhlizi" layihəsinin təşəbbüskarı və aparıcı qüvvəsi məhz Azərbaycandır. Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş videoformat şəklində keçirilən müşavirədə layihənin önəmini xüsusi vurğulayaraq demişdir: "Bu, bizim tarixi nailiyyətimizdir. Çünki "Cənub qaz dəhlizi"nin təşəbbüskarı da bizik. Əsas maliyyə yükünü də biz öz üzərimizə götürmüşük. Bir çox ölkələri birləşdirən bu layihə gələcəkdə o ölkələr və digər Avrasiya ölkələri arasında yeni əməkdaşlıq formatının təməlini qoyur. Bu əməkdaşlıq formatı bu gün artıq özünü nəqliyyat sektorunda, ticarət sektorunda göstərir, ondan sonra digər sektorlarda göstərəcək".

"Cənub qaz dəhlizi"ndə yeddi ölkə iştirak edir: Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro layihəyə qoşulmaq niyyətindədir. Yəni "Cənub qaz dəhlizi"nin hələ "qol"ları olacaq. Çünki Avropada Azərbaycan qazına tələbat var. Bu bizə ixrac imkanlarımızı getdikcə daha da genişləndirmək imkanı verir.

*Ardı 7-ci səh.*

# Biz beynəlxalq birliyin sülh yolu ilə edə bilmədiyini güc yolu ilə etdik





Əvvəli 1-ci səh.

44 günlük müharibə regionda vəziyyəti dəyişdi. Dediyim kimi, müharibə bitib, biz növbəti səhifəyə keçməliyik. Biz ağrını, yaraları heç vaxt unutmayacağıq. Yaralar heç vaxt sağalmayacaqdır. Biz qəhrəmanlarımızı heç vaxt unutmayacağıq. Lakin, eyni zamanda, biz gələcəyə baxmalıyıq və əraziləri, tam viran qalmış ərazini yenidən qurmalıyıq və biz bunu edəcəyik, artıq bu işlərə başlanılıb. İnfrastruktur layihələri, şəhər planlaması və yenidənqurmanın bir çox digər mühüm elementləri artıq icra olunmaqdadır. Bu il biz bu işlər üçün əsaslı vəsait ayırmışıq.

Beləliklə, biz beynəlxalq birliyin sülh yolu ilə edə bilmədiyini və ya etmək istəmədiyini güc yolu ilə etdik. Azərbaycanın tarixi torpaqlarının azad edilməsi təkcə bizim tariximizdə tarixi hadisə deyil, eyni zamanda, müharibələr tarixində əlamətdar hadisədir. Çünki biz demək olar ki, mümkünsüz kimi görünəni etdik. Zabit və əsgərlərimizin şücaəti və cəsarəti, müvafiq planlama, bütün xalqın sadiqliyi və birliyi ilə bunu etdik.





Cənab baş direktor, sıx əməkdaşlıq etdiyimiz bütün bu illər ərzində şəxsən sizə və ISESCO-ya Azərbaycana davamlı dəstək göstərdiyinizə görə minnətdarlığımı bildirmək istəyirəm. Xüsusilə müharibə zamanı qəbul edilmiş qərarlara görə təşəkkürümü bildirmək istəyirəm. Müharibə başlayandan bir neçə gün sonra - oktyabrın əvvəlində ISESCO Azərbaycanın ədalətli mövqeyinə çox dəstəkləyici bir bəyanat verdi və qərarlar qəbul etdi. Həmçinin bizim şanlı Zəfərimizdən sonra sizin mənə Qələbə münasibətilə göndərdiyiniz təbrik məktubunuza görə də minnətdarlığımı bildirmək istəyirəm. Bütün bunlar bizim birliyimizi, bizim xalqımızın birliyini nümayiş etdirir. Bildiyiniz kimi, Azərbaycan islam həmrəyliyi ilə bağlı məsələləri həmişə güclü təşviq etmişdir və ISESCO Azərbaycanda çoxsaylı tədbirlər keçirmişdir. Ümidvaram ki, bu, belə də davam edəcək. Biz həmişə müsəlman ölkələri arasında birliyə çağırış etmişik. Sizin Ağdamda və digər yerlərdə gördükləriniz, həmçinin Ermənistan rəhbərliyinin müsəlmanların dini hisslərinə və tarixinə necə münasibət bəslədiyini göstərir. Onlar biri istisna olmaqla bizim bütün digər məscidlərimizi dağıdıblar. Ağdamdakı məscidi onlar ona görə tam dağıtmamışdılar ki, Azərbaycan Ordusu irəli gedəndə onların artilleriya hücumlarını planlaşdırmaq üçün ərazidə müəyyən bir oriyentirə ehtiyacı var idi. Onlar məsafəni ölçməli idilər. Səbəb bu idi. Lakin bizim məscidlərdə onların donuzları və inəkləri necə saxlaması ilə bağlı çoxsaylı şəkillər var. Bu, təkcə azərbaycanlıların təhqir edilməsi deyil, bu, bütün müsəlmanlara qarşı təhqirdir. Zəngilanın işğaldan azad edilmiş ərazilərinə səfərim zamanı mən tamamilə dağıdılmış məscidə baş çəkdim. Şuşada onlar bütün məscidləri tamamilə dağıdıblar, bir məsciddən başqa. O da yarımçıq dağıdılmışdı, lakin sonra İslama aid mədəni və dini məkanları qoruduqlarını nümayiş etdirmək adı altında onlar bəzi təmir işləri görməyə çalışmışdı. Əfsuslar olsun ki, bir xarici şirkət bu təxribatçı təşəbbüsə qoşulmuş və bizim icazəmiz olmadan qanunvericiliyimizi, sərhədlərimizi pozaraq Şuşaya gəlmişdi. Həmin xarici şirkət Azərbaycan hökumətinin icazəsi olmadan, Dağlıq Qarabağda həmin vaxt mövcud olan qanunsuz rejimin himayədarlığı altında bəzi təmir işləri görmüşdü. Beləliklə, onlar cinayətkarlarla əlbir oldular, çünki ermənilər işğal edilmiş ərazilərdə demək olar ki, 70 məscidi dağıdıblar. Bu məscidlərdən birində təmir işləri aparmağa çalışmaq, sadəcə olaraq, onların sanki özlərini tolerant olduqlarını, müsəlman mədəniyyətinə, müsəlmanların hisslərinə hörmət etdiklərini nümayiş etdirmək cəhdi idi. Əgər onların münasibəti belə idisə, niyə digərlərini dağıdıblar və niyə digərlərini təmir etməyiblər? Şuşaya gəlmiş həmin xarici şirkət digər məscidlərin, bütün dini və mədəni irsin dağıdıldığını görmədi? Onlar hətta bunu dağıdan separatçılardan da pis davrandılar. Lakin biz hər şeyi bərpa edəcəyik. Biz hər şeyi ilkin vəziyyətinə gətirəcəyik, əraziləri yenidən quracağıq. Əminəm ki, gələn dəfə siz bizə səfər edəndə mənim Azərbaycan mədəniyyətinin paytaxtı elan etdiyim Şuşanı da ziyarət etmək imkanınız olacaq.

Mənim sizinlə müzakirə etmək istədiyim məsələlərdən biri də ISESCO-nun Azərbaycanda regional mərkəzi ilə bağlı məsələdir. Bilirsiniz ki, bu məsələ son 3-4 il idi müzakirə olunurdu və biz bu müzakirələrə yenidən nəzər salmaq istəyirik. Əgər müsbət irəliləyiş olsa, düşünürəm ki, biz bunu çox tezliklə edə bilərik. Bu, bizim üçün və islam həmrəyliyinin güclənməsinə, islam mədəni irsinin qorunmasına töhfə verən bütün insanlar üçün çox mühüm əhəmiyyət kəsb edəcək.

Cənab baş direktor, bir daha sizi salamlayıram, sizin indi - müharibə bitəndən sonra səfər etməyinizə dostluq və qardaşlıq nümunəsi kimi xüsusi önəm verirəm. Beləliklə, xoş gəlmisiniz.

❖ ❖ ❖

ISESCO-nun Baş direktoru **Salim bin MƏHƏMMƏD ƏL-MALİK** dedi:

-Zati-aliləri, təşəkkür edirəm. Rəhbərlik etdiyim nümayəndə heyəti ilə görüşməyiniz mənim üçün böyük şərəfdir. Mən hər zaman Sizi əzmli, həqiqətən öz ölkəsi üçün mübarizə aparan, digərlərinə yol göstərən uzaqgörən liderlərdən biri kimi görmüşəm. Siz Qoşulmama Hərəkatının sədrisiniz. Sizin BMT Baş Assambleyasının sonuncu sessiyasındakı çıxışınıza istinad etmək istəyirəm, dediniz ki, Azərbaycan son 30 ildə 120-dən çox ölkəyə dəstək verib, çox sayda beynəlxalq forumlar təşkil edib. Bu, dünyaya böyük kömək deməkdir. Düşünürəm ki, bunun sayəsində Azərbaycan dünyada aparıcı ölkələr sırasındadır.

Zati-aliləri, əmin olun ki, Azərbaycan hər zaman bizim üçün prioritet olub və olmağa davam edəcək. Biz Qələbəni qeyd etdik, çünki bu, bizim bir parçamızdır, Sizin Qələbəniz ISESCO-nun qələbəsinin bir parçasıdır. Bizim üzv dövlətlərimiz çox önəmlidir və biz kimliyindən asılı olmayaraq onları hər zaman dəstəkləyəcəyik. Mənimlə birlikdə ən önəmli insanlar gəlib. Mən onların baş verənlərin şahidi olmalarını və həmçinin Qələbəni qeyd etmələrini istəyirəm. Professor Rahil Qamar. O, elm və innovasiya sektorunun rəhbəridir və İslamabadda yerləşən COMSATS Universitetinin rektoru olub. Professor Məhəmməd Zeynalabdin. O, mədəniyyət üzrə baş katibdir və altı ay bundan əvvəl Tunisin mədəniyyət naziri idi. Səfir Xalid tərəfdaşlıq üzrə direktordur. Biz, həmçinin sivilizasiya dialoqu üzrə mərkəz də qururuq. O, Sudanın Mərakeş Krallığında səfiri və Sudanın sabiq Prezidentinin xüsusi müşaviri olub. Həmçinin cənab Sami. O, Misirin ən məşhur qəzetlərindən biri olan "Əl-Əhram"ın redaktoru olub. Beləliklə, görürsünüz ki, biz, ilk növbədə, Sizi təbrik etmək üçün buradayıq. Ölkənizə səfər edib Sizinlə görüşmək və bu mühüm Qələbənin qeyd edilməsində iştirak etməklə bağlı dəvətinizi yüksək qiymətləndiririk.

Biz işğaldan azad edilmiş ərazilərə səfər etdik və əvvəllər heç vaxt görmədiyimiz bir faciəni gördük. Tamamilə dağıdılmış, yerləyeksan edilmiş şəhər, bu, tamamilə qeyri-insani əməldir və heç bir ölçüyə sığmır. Bu, bəşəriyyət əleyhinə cinayətdir. Lakin dünən yerli hakimiyyət rəhbərlərində və vətəndaşlarda yenidənqurma əzmi və istəyinin şahidi olduq. Mən nazirlə söhbətimdə dedim ki, sadəcə, hökumətin dəstəyi ilə həmin insanlar Qarabağı yenidən quracaq. Biz dünən görüşdüyümüz hər kəsdə məhz bunu hiss etdik. Bu cür istəyi görmək bizi qürurlandırdı.

❖ ❖ ❖

Sonra **Prezident İlham ƏLİYEV** ISESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik və nümayəndə heyətinin üzvləri ilə xatirə şəkilləri çəkdirdi.

Daha sonra ISESCO-nun Baş direktoru Qələbə münasibətilə Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

**Salim bin MƏHƏMMƏD ƏL-MALİK:**

- Bu, Qələbəni əks etdirir. Burada Bismillahir-Rəhmanir-Rəhim deyilir. Burada deyilir ki, biz Qələbəni qeyd edirik və burada Allahın Məhəmməd peyğəmbərə kəlamları var.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun.

**Salim bin MƏHƏMMƏD ƏL-MALİK:**

- Burada zati-aliləri Prezident İlham Əliyev üçün yazılıb, Dağlıq Qarabağda Qələbəni qeyd edirik, bu, bizim loqodur. Zati-aliləri, bu qılıncın 100-dən çox yaşı var.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun. Bizim Qələbənin rəmzi dəmir yumruq idi, artıq bizdə qılınc var. Təşəkkür edirəm.

---

## İ.M.Rəhimovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında hüquq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə İlham Məmmədhəsən oğlu Rəhimov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2021-ci il*

---

## Vaksinlər, onların şprisləri və neft emalı zavodunun modernləşdirilməsi üçün zəruri mallar ölkəmizə rüsumsuz idxal olunacaq

Ölkə iqtisadiyyatının neft məhsullarına artmaqda olan tələbatını tam ödəmək, Avropa ekoloji standartlarına uyğunlaşdırılaraq daha yüksək keyfiyyətə malik neft məhsullarının istehsal edilməsi məqsədilə Heydər Əliyev adına Neft Emalı Zavodunun modernizasiyası işləri həyata keçirilməkdədir. Həmin layihə çərçivəsində xərclərin optimallaşdırılması məqsədilə vergi və gömrük sahəsində bir sıra tədbirlər görülüb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Belə ki, Nazirlər Kabinetinin müvafiq qərarına və 2021-ci il dekabrın 31-dək Azərbaycan Respublikası Energetika Nazirliyinin təsdiqedici sənədlərinə əsasən, iri neft emalı zavodlarının yenidən qurulması layihələri çərçivəsində ölkəyə gətirilən avadanlıqlar və materiallar gömrük rüsumlarından azad olunub.

Hazırda Zavodun modernizasiyası işlərinin davam etdiyini və layihənin maliyyə yükünün artırılmasının zəruriliyini nəzərə alaraq, Nazirlər Kabineti tərəfindən qəbul edilmiş bu qərarla gömrük rüsumlarından azadolma müddəti əlavə 1 il artırılır.

Bundan başqa, koronavirus (COVID-19) pandemiyasının insan həyatına və sağlamlığına mümkün təsirlərinin aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təsdiqedici sənədi əsasında yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı vaksinlərin və həmin vaksinlər üçün nəzərdə tutulmuş şprislərin idxalı 2021-ci il yanvarın 1-dən 2 il müddətinə rüsumdan azad edilib.

---

# İlham Əliyev qalib rəhbər statusu ilə Azərbaycanın mənafeyini layiqincə təmin etdi

## Moskvada imzalanan Bəyanat ölkəmizin hərbi və siyasi qələbəsinin növbəti təcəssümü oldu

Əvvəli 1-ci səh.

Noyabrın 10-dan sonra Ermənistanda hərbi məğlubiyyətlə əlaqədar yeni siyasi böhran yarandı. Bəyanatın müddəalarını qəbul etmək istəməyən müxalifət partiyaları günlərlə baş nazir Paşinyanın istefasını tələb etdilər. Reallıq ondan ibarət idi ki, Azərbaycan Paşinyanın deyil, vaxtilə Koçaryan-Sarkisyan cütlüyünün yaratdığı işğalçı ordunu darmadağın etmişdi. Hakimiyyətdə Paşinyan deyil, başqası olsaydı belə, Ermənistan bu müharibədə məğlub olacaqdı. Digər tərəfdən etiraz edən Ermənistan müxalifəti alternativ variant da ortaya qoya bilmirdi. Bu baxımdan məğlub Ermənistanın 10 noyabr Bəyanatının bəndlərinə uyğun siyasət yürütməkdən başqa yol yox idi.

Yanvarın 11-də Moskvada Azərbaycan və Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin iştirakı ilə üçtərəfli görüşün keçirilməsində də məqsəd həmin Bəyanatda yer alan məsələlərdən irəli gələn prioritetlərin müəyyənləşdirilməsidir.

### Kommunikasiyaların bərpasının həyata keçirilməsinə başlanılır

Moskvadakı görüşün yekunu ilə bağlı üçtərəfli Bəyanat imzalandı. 44 günlük müharibəyə yekun vuran, dövlətlər arasında siyasi deyil, iqtisadi və regional əməkdaşlıq məsələlərini nəzərdə tutan ikinci Bəyanatın qəbul olunması ilə bir daha təsdiq edildi ki, regionun gələcəyi hazırkı nəticələrin təftişi deyil, perspektivə istiqamətlənmiş məsələlərin həyata keçirilməsi ilə bağlıdır.

Bu Bəyanat regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, bu məqsədlə üçtərəfli İşçi qrupunun, yarımqrupların yaradılmasını, görüləcək işlərlə bağlı prioritetlərin müəyyən edilməsini nəzərdə tutan yol xəritəsidir. Sənəd Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı bir daha təsdiqləyir və kommunikasiyaların bərpası ilə bağlı əks olunmuş müddəaların həyata keçirilməsi mexanizmlərinin formalaşdırılması üçün müvafiq vəzifələri müəyyən edir.

Sənəddə əksini tapmış ən mühüm məsələ 2021-ci il martın 1-dək Azərbaycanın və Ermənistanın ərazisindən həyata keçirilən daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısı və reallaşdırılması qrafikinin hazırlanmasıdır. Bu, Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirən dəhlizin yaradılması, Naxçıvanın blokadadan çıxarılması, həm Azərbaycanın özü, həm də bütün region ölkələri üçün mühüm əhəmiyyət kəsb edən nəqliyyat-kommunikasiya imkanlarının reallığa çevrilməsi, yeni nəqliyyat platformasının gerçəkləşməsi istiqamətində əhəmiyyətli addımdır.

### İlham Əliyev məğrur, Paşinyan isə məyus və çaşqın idi

Moskva görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin məğrur duruşu, alicənablığı, yüksək səviyyəli çıxışı diqqəti cəlb etdi. Prezident İlham Əliyev qalib dövlət rəhbəri statusundan, kəskin şəxsi üstünlüyündən istifadə edərək Paşinyanı aşağılamadı, onu çıxılmaz duruma salmadı. Prezident İlham Əliyevin nitqləri, davranışı göstərdi ki, Azərbaycan uzunmüddətli sülhün, əməkdaşlığın, iqtisadi inkişafa aparan layihələrin gerçəkləşməsinin tərəfdarıdır və fəaliyyətini məhz bu istiqamətdə qurur. *"Bu gün imzalanmış Bəyanat bizim niyyətlərimizə dəlalət edir, ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair Bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi. Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir. Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq",* - deyə Prezident İlham Əliyev bildirib.

Ermənistanın baş naziri N.Paşinyan isə Moskvada həddən artıq gərgin idi. Bu görüş onun çaşqın, məyus durumu ilə yadda qaldı. Təsadüfi deyil ki, Rusiya mediası Ermənistanın baş nazirinin durumunu, jestlərini, qeyri-adekvat davranışını geniş müzakirə etməkdədir. Digər tərəfdən, dövlət başçılarının mətbuat üşün bəyanatları zamanı Paşinyanın çıxışında qaldırdığı məsələlər müzakirə mövzusu deyildi. Rusiya Prezidenti Vladimir Putin heç bir çıxışında status və digər bu kimi məsələlərə, ümumiyyətlə, toxunmadı. Həmin məsələlər birgə Bəyanatda da əksini tapmadı. Çünki Qarabağ Azərbaycandır və Ermənistanın status xülyasına birdəfəlik son qoyulub.

Paşinyanın toxunduğu hərbi əsirlər məsələsinə gəldikdə isə Vladimir Putin üçtərəfli görüşdə "Əsirlər və həlak olanların cəsədləri Rusiyanın vasitəçiliyi ilə dəyişdirilib" deməklə bu mövzunun qapandığını bildirdi. Çünki noyabrın 10-dan sonra işğal olunmuş Azərbaycan ərazilərində ələ keçirilən erməni silahlıları hərbi əsir sayıla bilməz, onlar terrorçu və diversantlardır. Ona görə Paşinyanın çıxışı, onun ofisinin yaydığı press-reliz daxili auditoriyaya, Ermənistan əhalisinə hesablanmış iddialardan başqa bir şey deyildi.

Yanvarın 11-də imzalanan üçtərəfli Bəyanat, ilk növbədə, Ermənistanın işğal siyasətinə qarşı növbəti hüquqi sənəddir. Eyni zamanda sənədə əsasən, Naxçıvanla yeni nəqliyyat dəhlizinin yaradılması istiqamətində prioritetlər də dəqiqləşdirildi. Bununla həm də Azərbaycanla Türkiyənin nəqliyyat əlaqələrində yeni mərhələ başlayacaq. Ona görə Moskvada imzalanan növbəti Bəyanat Prezident İlham Əliyevin uğuru və siyasi-diplomatik qələbəsidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, №11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506; Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 174-VIQD və 175-VIQD nömrəli, 26 noyabr tarixli 204-VIQD nömrəli qanunları) 2-ci maddəsinə “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 10 illiyi (2005-2015)” yubiley medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)” yubiley medalı;”.

**Maddə 2.** “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2020-ci il*

*Azərbaycan Respublikasının 2020-ci il 25 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

**Maddə 1.** Təltif edilən şəxslər

“Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)” Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarının fəaliyyətinin təşkilində, inkişafında və möhkəmləndirilməsində xüsusi xidmətləri olan, habelə mülki müdafiə işinin təşkili, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması və fövqəladə halların nəticələrinin aradan qaldırılması tədbirlərinin həyata keçirilməsində fəal iştirak edən şəxslər təltif edilirlər.

**Maddə 2.** Təltif edən orqan

“Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təltif edir.

**Maddə 3.** Taxılma qaydası

“Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 10 illiyi (2005-2015)” Azərbaycan Respublikasının yubiley medalından sonra taxılır.

*Azərbaycan Respublikasının 2020-ci il 25 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1.** Medalın ümumi təsviri

“Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra-medal) bürüncdən tökülmüş, diametri 38 mm olan qızılı rəngli səkkizguşəli ulduz formalı metal lövhədən ibarətdir.

**Maddə 2.** Medalın ön tərəfi

2.1. Səkkizguşəli ulduzun ön tərəfi qızılı rəngdə relyeflə haşiyələnmişdir, içi ağ rəngdədir. Ulduzun xarici guşələri arasındakı bucaqlarda qızılı rəngdə şüalar yerləşdirilmişdir. Mərkəzdə qırmızı fonda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi emblemindən ibarət kompozisiya təsvir olunmuşdur.

2.2. Kompozisiyanın yuxarı hissəsində qövs boyunca qara rəngdə basma üsulu ilə “AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ” sözləri qızılı rəngdə dekorativ lentin üzərində yazılmışdır. Kompozisiyanın aşağı hissəsində Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərinə uyğun dekorativ lentin təsviri verilmişdir. Dekorativ lentin üzərində sol tərəfdə alt-alta qızılı rəngdə “2005” və “2020” rəqəmləri, sağ tərəfdə isə qızılı rəngdə dəfnə budağının üstündə içi ağ rəngdə olan “15 il” relyefli sözləri yazılmışdır.

2.3. Bütün rəqəmlər və elementlər relyeflidir.

**Maddə 3.** Medalın arxa tərəfi

3.1. Medalın arxa tərəfi hamar səthlidir. Yuxarı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.2. Arxa tərəfin mərkəzində “AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN 15 illiyi” sözləri və həmin sözlərin altında “(2005-2020)” rəqəmləri həkk olunmuşdur. Arxa tərəfin aşağı hissəsində milli ornament təsvir olunmuşdur.

3.3. Bütün yazılar, rəqəmlər və ornament relyefli və qızılı rəngdədir.

**Maddə 4.** Medalın elementləri

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, üst hissəsi 40 mm x 4 mm, alt hissəsi 40 mm x 6,5 mm ölçüdə qızılı rəngli metal lövhədən, orta hissəsi 37 mm x 50 mm ölçüdə xara lentdən ibarət düzbucaqlı lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Alt hissədə olan qızılı rəngli metal lövhənin üzərində milli ornament həkk olunmuşdur.




4.2. Xara lent mərkəzdə eni 3 mm olan sarı, mərkəzdən kənarlara doğru isə ardıcıllıqla eni 2 mm olan qırmızı, 3 mm olan ağ, 10 mm olan qırmızı və 2 mm olan göy rəngli şaquli zolaqlara bölünmüşdür.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, metaldan düzəldilmiş və eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçüdə qəlib əlavə olunur.

# “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005 - 2020)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 25 dekabr tarixli 231-VIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005 - 2020)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 25 dekabr tarixli 231-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2020-ci il 25 dekabr tarixli 231-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005 - 2020)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur.

2. “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005 - 2020)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının fövqəladə hallar nazirinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005 - 2020)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 25 dekabr tarixli 231-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 yanvar 2021-ci il*

# “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599; 2010, № 4, maddə 276, № 10, maddə 841; 2013, № 11, maddə 1302; 2014, № 4, maddə 342; 2015, № 8, maddə 903, № 12, maddə 1439; 2016, № 2 (II kitab), maddə 221; 2017, № 2, maddə 140, № 12 (I kitab), maddə 2211; 2018, № 1, maddə 22, № 12 (I kitab), maddələr 2510, 2517; 2019, № 3, maddə 374, № 8, maddə 1379; 2020, №6, maddə 663) 27-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. adında “Sərnişin avtomobil nəqliyyatı” sözləri “Avtonəqliyyat” sözü ilə əvəz edilsin.

2. 27.3-cü maddənin birinci cümləsindən “beynəlxalq və” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2020-ci il*

# Azərbaycan Respublikasının Əfqanıstan İslam Respublikasında (Kabil şəhərində) Səfirliyinin təsis edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əfqanıstan İslam Respublikasında (Kabil şəhərində) Səfirliyi təsis edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

# Azərbaycan Respublikasının Əfqanıstan İslam Respublikasında (Kabil şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Əfqanıstan İslam Respublikasında (Kabil şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikasının Əfqanıstan İslam Respublikasında (Kabil şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Səfirliyin strukturunu və ştat cədvəlini təsdiq etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2021-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident, Əziz Qardaşım!

Doğum gününüz münasibətilə Sizi ən səmimi duyğularla təbrik edir, yeni yaşınızın Sizə cansağlığı və xoşbəxtlik gətirməsini diləyirəm.

Zati-alinizin liderliyi ilə Azərbaycanın əldə etdiyi uğurlar, bölgənin lider dövlətinə çevrilməsi və bu il Ermənistana qarşı aparılan Vətən müharibəsində Qələbə qazanaraq işğal altındakı torpaqlarını azad etməsi bizi son dərəcə məmnun etməkdədir.

Yeni yaşınızın Azərbaycan üçün xeyirli olmasını arzulayır, zati-alinizə uzun və sağlam ömür diləyirəm.

Fürsətdən istifadə edərək Sizi və dəyərli ailənizi Yeni il münasibətilə təbrik edir, Yeni ilin Sizlərə və qardaş Azərbaycan xalqına rifah və əmin-amanlıq gətirməsini arzulayıram.

***Abdullah GÜL,***
***Türkiyə Respublikasının***
***11-ci Prezidenti***

# Azərbaycan, Pakistan və Türkiyə xarici işlər nazirlərinin üçtərəfli görüşünün yekunlarına dair İslamabad bəyannaməsi imzalanıb

**Yanvarın 13-də İslamabadda Pakistan İslam Respublikasının xarici işlər naziri Məhdum Şah Mahmud Qureşinin dəvəti, Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun və Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun iştirakı ilə üç ölkənin xarici işlər nazirlərinin üçtərəfli dialoqunun ikinci görüşü keçirilib.**




Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Görüşün yekunlarına dair bəyanname imzalanıb. Bəyannamədə deyilir:

“Nazirlər üç ölkə arasında mövcud olan qardaşlıq, tarixi və mədəni bağlara, qarşılıqlı hörmətə və etimada əsaslanan səmimi əlaqələri vurğulayaraq;

Siyasi, strateji, ticarət, iqtisadi, sülh və təhlükəsizlik, elm və texnologiya və mədəniyyət sahələri də daxil olmaqla qarşılıqlı maraq doğuran bütün sahələrdə 30 noyabr 2017-ci il tarixində Bakıda keçirilmiş ilk üçtərəfli görüşün nəticəsində qurulmuş əməkdaşlığın bundan sonra da dərinləşdirilməsini arzu edərək;

Pakistan, Türkiyə və Azərbaycanın öz bölgələrində sülhün, sabitliyin və inkişafın təşviqi və xalqlarının daha geniş ərazidə bu idealları ortaq firavanlıq və təhlükəsizlik naminə daha da inkişaf etdirmək üçün qarşılıqlı istəklərinə verdiyi əhəmiyyətli töhfələri nəzərə alaraq;

Ölkələrinin üzləşdiyi saysız-hesabsız təhdidləri və yeni yaranan hədələri, o cümlədən xaricdən dəstəklənən terror aktları, kiberhücumlar, hibrid müharibə formaları, hədəfli dezinformasiya kampaniyaları və bir çox ölkələrdə müsəlman azlıqların dinc yanaşı yaşamasına təsir göstərən İslamofobiya meyillərini dərk edərək;

Dünyanın müxtəlif yerlərində müsəlman icmalarına qarşı törədilmiş ciddi insan haqları pozuntuları və insanlıq əleyhinə cinayətlər barədə ciddi narahatlıqlarını ifadə edərək;

COVID - 19 pandemiyasının geniş təsirlərini və müvafiq bölgələrin iqlim dəyişikliyinin mənfi təsirlərinə qarşı həssaslığını tamamilə anlayaraq;

İşğaldan azad edilmiş ərazilərin bərpası və reabilitasiyası səylərində Azərbaycan hökuməti və xalqı ilə həmrəyliyi ifadə edərək;

Sülh və inkişaf naminə regional konsensusun inkişaf etdirilməsinə sadiqliyi təsdiqləyərək;

Dövlətlərinin suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq sərhədlərinin toxunulmazlığını mühafizə etmək və qorumaq naminə güclü və birmənalı dəstəklərini təkrar ediblər;

Xüsusilə regional və beynəlxalq müstəvilərdə İslamofobiya və müsəlman azlıqların təqibinə qarşı mübarizədə birgə səyləri artırmaq barədə razılığa gəliblər;

Asiyanın ürəyi - İstanbul Prosesinin Əfqanıstan və regionda sülh, sabitlik və iqtisadi rifaha verdiyi töhfəni alqışladılar və Pakistan hökumətinin bölgədəki məsələlərin siyasi həllini asanlaşdırmaq səylərini qiymətləndirdilər və Əfqanıstana məxsus olan və Əfqanıstan tərəfindən rəhbərlik edilən sülh prosesinə dəstəklərini ifadə ediblər;

Terrorizmin bütün formalarına, xarici dövlətlər tərəfindən himayə edilən terrorizmə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotik maddələrin qanunsuz dövriyyəsinə, insan alverinə, çirkli pulların yuyulmasına, mədəni və tarixi irsə qarşı cinayətlər və kiberterrorizmə qarşı mübarizə naminə müxtəlif beynəlxalq və regional sənədlərə uyğun olaraq sülh və təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirmək qərarlarını yeniləyiblər;

2020-ci ilin noyabr ayında İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Niameydə Cammu və Kəşmir münaqişəsi üzrə qəbul edilmiş 10/47-Pol saylı ən son qətnaməsini və İƏT Təmas Qrupunun Cammu və Kəşmir üzrə kommünikelərini təsdiq ediblər və 5 avqust 2019-cu ildə Kəşmirdəki demoqrafik quruluşu dəyişməyə yönəlmiş insan hüquqlarının kobud şəkildə pozulması ilə bağlı birtərəfli fəaliyyətindən dərin narahatlıqlarını ifadə etdilər, Cammu və Kəşmir münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində, sülh yolu ilə həll edilməsi ilə bağlı prinsipial mövqelərini təkrar ediblər;

Kipr, o cümlədən Egey və Şərqi Aralıq dənizi məsələlərinin beynəlxalq hüquqa əsaslanan ədalətli, davamlı və realist, eləcə də qarşılıqlı qəbul edilmiş həllini dəstəkləmək qərarlarını bildiriblər;

Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulmasını və Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq normallaşdırılmasını dəstəklədiklərini bir daha təkrar ediblər;

Müdafiə və təhlükəsizlik sahələrində, o cümlədən qabaqcıl təcrübələrin bölüşdürülməsi, potensialın artırılması, yeni və inkişaf etməkdə olan texnologiyalar və müntəzəm səfər mübadiləsi yolu ilə əməkdaşlığın təşviq olunmasına sadiq qalıblar;

COVID-19 pandemiyasının iqtisadi artım və ictimai sağlamlığa geniş təsirlərini müzakirə ediblər, məlumat, tədqiqat, təcrübə və qabaqcıl təcrübə mübadiləsi barədə razılığa gəliblər və inkişaf etməkdə olan ölkələrin maliyyə və qabiliyyət məhdudiyyətlərini nəzərə alaraq problemin effektiv və anlaşıqlı şəkildə həll edilməsi üçün genişləndirilmiş beynəlxalq əməkdaşlıq və həmrəyliyə çağırıblar;

Üçtərəfli ticarət və investisiyaların genişləndirilməsi üçün əməkdaşlığı gücləndirməyə və dərinləşdirməyə qərar veriblər və üç ölkənin müvafiq nazirliklərini rüsumların azaldılması, tarif və qeyri-tarif maneələri, nəqliyyat xərcləri, bank sektorları arasında daha yaxşı əlaqələndirmə və qarşılıqlı investisiyaların qorunması ilə bağlı konkret tövsiyələri əks etdirən möhkəm bir Fəaliyyət Planı hazırlamağa çağırıblar;

Nəqliyyat, ticarət, enerji, insanlar arasındakı əlaqələr, təhsil, sosial və mədəni mübadilə, turizm və İKT sahələrində, o cümlədən müxtəlif regional forumlarda hava, dəmir yolu və avtomobil əlaqələri və regional bağlılıq təşəbbüslərinin təkmilləşdirilməsi və gücləndirilməsi yolu ilə regional bağlılıq üzrə əməkdaşlığı inkişaf etdirməyə qərar veriblər;

Qida və enerji təhlükəsizliyi, ətraf mühit, davamlı inkişaf və iqlim dəyişikliyi mövzusunda əməkdaşlığın intensivləşdirilməsinin vacibliyini vurğulayıblar və 2030 Dayanıqlı İnkişaf Məqsədlərinə vaxtında cavab vermək və nail olmaq üçün daha geniş beynəlxalq əməkdaşlığa çağırıblar;

Üçtərəfli görüşlərin hər il əlifba sırası ilə mütəmadi olaraq çağırılmasına razılıq veriblər;

Həmçinin 2022-ci ildə qarşılıqlı razılaşdırılmış tarixlərdə üçtərəfli görüşlərin üçüncü iclasının Türkiyədə keçirilməsinə razılıq veriblər”.

# ISESCO-nun Baş direktoru Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib




Azərbaycanda səfərdə olan İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti yanvarın 13-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən qonaqlar ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər qoyublar.

# Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan XİN-in əsassız ittihamlarını rədd edib

"Ermənistan Xarici İşlər Nazirliyinin, guya ki, 1990-cı ilin yanvarında Bakıda ermənilərə qarşı qırğının törədilməsi ilə bağlı əsassız bəyanatı bu ölkənin hələ də uydurma propaqandadan əl çəkmədiyini, xalqlararası nifaq və düşmənçiliyi qızışdırmaq niyyətini göstərir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan XİN-in 2021-ci il 13 yanvar tarixli bəyanatı ilə bağlı şərhində yer alıb.

Şərhdə deyilir: "Ermənistan XİN-nə xatırladırıq ki, 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya edilən 150 minədək azərbaycanlı Ermənistan SSR-in 24 rayonu və İrəvan şəhərindən zorla Azərbaycana köçürüldü. Eləcə də Ermənistanın 1980-ci illərin sonunda Azərbaycana qarşı əsassız ərazi iddiaları, Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindəki şovinist təfəkkürlü ermənilərin aqressiv separatçılıq fəaliyyəti, SSRİ rəhbərliyinin bu fəaliyyətə dəstək verməsi, yüz minlərlə azərbaycanlının növbəti dəfə zor gücü ilə və qəddarcasına Ermənistandan deportasiya edilməsi Azərbaycanda sovet hakimiyyətinə qarşı hərəkatın genişlənməsinə təkan verdi. Məhz ümumxalq hərəkatının qarşısını almaq və Azərbaycan xalqının müstəqillik əzmini qırmaq məqsədilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə ölkəyə yeridilən sovet ordusu beynəlxalq hüququn normalarını, keçmiş SSRİ və Azərbaycan SSR-in konstitusiyalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı görünməmiş qırğın törətdi.

Lakin 1990-cı ilin yanvar hadisələri Azərbaycan xalqının müstəqillik əzmini qıra bilmədi və ölkəmiz dövlət müstəqilliyini bərpa etdi. Bu gün Azərbaycanın müstəqilliyi və suverenliyi bütün beynəlxalq ictimaiyyət tərəfindən birmənalı şəkildə tanınır və dəstəklənir.

Ermənistan XİN-i bu kimi uydurma təbliğat xarakterli məlumatlar yaymaqla tarixən Azərbaycanın dinc əhalisinə qarşı həyata keçirdiyi soyqırımı, etnik təmizləmə siyasətini, Xocalı şəhərində bir gecədə 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirdiyini, 30 ilə yaxın müddət ərzində bir milyondan çox azərbaycanlının fundamental hüquqlarını kobudcasına pozduqlarını gizlətmək məqsədini güdür.

Bölgədə bütün hərbi əməliyyatların dayandırılmasına dair 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra sülh və təhlükəsizlik, tərəqqi şəraitində birgəyaşayış fikirlərinin təşviq olunması əvəzinə, rəsmi Yerevanın uydurma əsaslarla düşmənçilik propaqandasını davam etdirməsi təəssüf doğurur və bu ölkənin əsl niyyətini üzə çıxarır.

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan XİN-in əsassız ittihamlarını rədd edir və bu ölkəni 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatlar ilə üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq və beynəlxalq hüququn aliliyi prinsiplərindən çıxış edərək davranmağa çağırır .

# *Anar KƏRİMOV:* "Əminik ki, ISESCO erməni vəhşiliyi haqqında dünyanı, o cümlədən İslam aləmini məlumatlandıracaq"

**ISESCO-nun nümayəndə heyəti işğaldan azad edilmiş Füzuli rayonunda və Ağdam şəhərində ermənilərin törətdiyi cinayətlərin, o cümlədən məscidlərə, Azərbaycanın tarixi, mədəni irsinə qarşı vandallıq aktlarının şahidi oldu.**

**Onlar bu cinayətləri öz hesabatlarında əks etdirəcəklər. Əminik ki, bu vəhşilik haqqında bütün dünyaya, o cümlədən İslam aləminə məlumatlar çatdırılacaq. Bu, çox önəmlidir.**

**Bu barədə AZƏRTAC-ın müxbirinə müsahibəsində Azərbaycanın mədəniyyət naziri Anar Kərimov bildirib.**



### "Bu səfəri Azərbaycanla həmrəylik kimi qiymətləndiririk"

ISESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin başçılıq etdiyi nümayəndə heyətinin Füzuli və Ağdam rayonlarına səfərindən sonra müxbirimizin suallarını cavablandıran nazir qeyd edib ki, bu, Vətən müharibəsindən sonra beynəlxalq təşkilatın rəhbəri səviyyəsində ölkəmizə ilk səfərdir. Bunu Azərbaycanla həmrəylik kimi qiymətləndiririk.

"Biz beynəlxalq təşkilatları azad olunmuş torpaqlarımıza dəvət edirik. İstəyirik ki, bütün dünya erməni vəhşiliyinin şahidi olsun. Hazırda bununla bağlı UNESCO və digər təşkilatlarla müzakirələr aparılır. Azad edilmiş ərazilərə səfərlərin təşkili üçün təhlükəsizlik tədbirləri də təmin olunmalıdır. Bugünkü səfər də minalardan təmizlənmiş ərazilərə təşkil edilib. Ermənilərin törətdiyi bütün cinayətləri sənədləşdirmək üçün ekspertlər hər yeri gəzib qeydiyyat aparmalıdırlar ki, gələcəkdə bu faktları beynəlxalq məhkəmələrə təqdim edək. Ermənistan hüquqi məsuliyyətə cəlb olunmalı, təzminat ödəməlidir", - deyə Anar Kərimov qeyd edib.

### Qarabağda tarixi abidələrin konservasiyası və bərpası üçün yol xəritəsi hazırlanacaq

İşğaldan azad olunmuş ərazilərimizdəki mədəni-dini və tarixi abidələrimizin qorunması istiqamətində atılacaq addımlarla bağlı sualı cavablandıran nazir deyib: "Mədəniyyət Nazirliyinin ekspertləri hazırda həmin ərazilərdə maddi-mədəni, tarixi abidələrin monitorinqini, inventarlaşmasını aparırlar. Daha sonra abidələrin konservasiyası, bərpası üçün yol xəritəsi hazırlanacaq. Bu, uzunmüddətli prosesdir. Amma biz buna çox qətiyyətlə başlamaq niyyətindəyik. Bu işdə bizə həm yerli, həm də xarici ekspertlər kömək etməlidirlər. İlk olaraq mədəniyyətimizin beşiyi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərindən başlamağı planlaşdırırıq. Təbii ki, Ağdam, Füzuli və digər azad edilmiş ərazilərdəki tarixi-mədəni abidələr, mədəniyyət müəssisələri də bərpa olunacaq".

Mədəniyyət naziri bildirib ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçiriləcək tədbirlərlə bağlı plan hazırlanır. Bu il Şuşada iki tədbir - "Xarıbülbül" festivalı və Molla Pənah Vaqif poeziya günlərinin keçirilməsi nəzərdə tutulub.

# Azərbaycan Ordusu atəşkəs rejimini pozmayıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Silahlı Qüvvələrimizin, guya, atəşkəsi pozması nəticəsində erməni işğalçı kontingentinin hərbi qulluqçusu Vardan Vaçaqanoviç Kirakosyanın (2000-ci il təvəllüdlü) yaralanması barədə Ermənistan KİV-ində bu gün yayılmış məlumatı qəti şəkildə rədd edir.

Bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

"Azərbaycan Ordusu 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın tələblərinə ciddi şəkildə əməl edir. Azərbaycan Ordusu tərəfindən heç bir atəşkəsin pozulması halı olmayıb", - deyə Vaqif Dərgahlı bildirib.

# Səfərbərlikdən tərxis olunan şəxslərin müraciətlərinə baxılması üzrə komissiyanın işi KİV-in iştirakı ilə davam edib

**Müdafiə nazirinin müvafiq əmri ilə yaradılmış səfərbərlikdən tərxis edilmiş şəxslərin qəbulu və müraciətlərinə baxılması üzrə komissiyanın fəaliyyəti davam edir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən komissiya tərəfindən iki gün ərzində 532 müraciətə baxılıb və həll olunması üzrə müvafiq tədbirlər görülüb.




Füzuli rayonu ərazisində fəaliyyət göstərən komissiyanın səyyar qrupu tərəfindən isə bu günədək 96 müraciətə baxılıb, onlardan 51 müraciət yerində baxılaraq həll olunub, digər müraciətlərin həll olunması üzrə müvafiq tədbirlər görülüb.

Komissiyanın fəaliyyətinin kütləvi informasiya vasitələrində işıqlandırılması məqsədilə səfərbərlikdən tərxis edilmiş şəxslərin qəbulu və müraciətlərinə baxılması prosesində media nümayəndələri də iştirak ediblər.

# İçərişəhərlə tanışlıq ISESCO-nun nümayəndə heyətində zəngin təəssürat yaradıb

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin başçılıq etdiyi nümayəndə heyəti yanvarın 13-də İçərişəhərlə tanış olub.



AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərinə UNESCO-nun Dünya Mədəni İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan abadlaşdırma və bərpa işləri barədə məlumat verilib. Qeyd edilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi-memarlıq abidələri var və bunlar dövlət tərəfindən qorunur.

Orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar saray kompleksi ilə başlanan tanışlıq zamanı nümayəndə heyətinin üzvlərinə məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. Abidə Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

Sonra qonaqlar 1895-ci ildə inşa olunan yerli əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Bəylər məscidi ilə tanış olublar. Bildirilib ki, bu sənət incisi Bakının məşhur bəylərinin sifarişi ilə tikildiyi üçün bu adı qazanıb. İçərişəhər ərazisində tikilən sonuncu məscid zalın böyüklüyü və tikinti quruluşuna görə digər dini abidələrdən fərqlənir. Məscidin inşasında Avropa, Şərq, eləcə də yerli memarlığın konstruktiv prinsipləri birləşdirilmişdir.

Gəzinti zamanı qonaqlar Bakı Xan Sarayı Kompleksinin ərazisində salınmış və yeni istifadəyə verilmiş parkda olublar. 2016-cı ildə Qoşa Qala qapıları yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən XVII əsrə aid Yeraltı hamama baxıblar. Həmçinin İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi ilə tanış olublar.

ISESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

Azərbaycan paytaxtının qədim guşəsi ilə tanışlıqdan xatirə olaraq qonağa hədiyyə təqdim edilib.

İçərişəhərlə tanışlıq ISESCO-nun nümayəndə heyətində zəngin təəssürat yaradıb.

# ISESCO-nun nümayəndə heyəti Azərbaycan Milli Xalça Muzeyində olub

Ölkəmizdə səfərdə olan İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin başçılıq etdiyi nümayəndə heyəti yanvarın 13-də Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olub.



AZƏRTAC xəbər verir ki, qonaqlara xalqımızın qədim xalçaçılıq sənəti, onun tarixi, adət-ənənəsi haqqında məlumat verilib. Bildirilib ki, Azərbaycan xalçaçılıq sənətinin əsas bədii istiqamətlərini əks etdirən muzeyin kolleksiyası nadir gözəlliyin, istifadə olunan materialların, toxuma texnikasının, xalçalara məxsus zərif və dərin bədii xüsusiyyətlərin harmoniyasını nümayiş etdirir.

Diqqətə çatdırılıb ki, "qızıl fondu"nu xovlu xalçalar təşkil edən Milli Xalça Muzeyinin kolleksiyasında xovsuz xalçaların da nadir nümunələri saxlanılır. Burada Azərbaycanın 7 əsas xalçaçılıq məktəbinin - Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz məktəblərinin xalça nümunələri təqdim olunur. Xalçalar xalqın həyat və məişətini əks etdirən, insan, heyvan, quş, bitki ornamentləri ilə zəngin olan sənət əsərləridir.

Qeyd olunub ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük zəhməti sayəsində milli xalçaçılıq sənəti 2010-cu il noyabrın 16-da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Maddi-mədəni irsimizlə yanaşı, muzey binasının orijinal görünüşü, qeyri-adi ekspozisiya zallarının quruluşu qonaqlarda xoş təəssürat yaradıb.

# Gözəgörünməz düşmənlə mübarizə prioritetdir

**Yer üzündə koronavirus can almaqda davam edir. Artıq bir ildən çoxdur ki, dünya pandemiyanın şərtləri ilə yaşamaqdadır və ötən müddət ərzində vəziyyət heç də normallaşmayıb, əksinə, təhlükəli virus sürətlə yayılmaqdadır.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatında bildirilir ki, dünyada son sutkada 566 186 nəfər koronavirusa yoluxub, 9371 nəfər vəfat edib. Son 24 saat ərzində yoluxmanın 54 faizdən çoxu Şimali və Cənubi Amerikanın payına düşüb, digər yerləri isə Avropa, Cənub-Şərqi Asiya bölüşür.

Hazırda dünyanın bir çox ölkəsində koronavirus əleyhinə vaksinasiya kampaniyasına start verilib. Buna baxmayaraq, mütəxəssislər yaxın zamanda COVID-19-dan yaxa qurtarmağın mümkün olmayacağı barədə də xəbərdarlıq edirlər.

ÜST-ün elmi tədqiqatlar üzrə əsas səlahiyyətli nümayəndəsi Soumya Svaminatan bu il ərzində əhalinin immunitetinin və ya kollektiv immunitetin hansısa bir mərhələsinə nail olunacağını qeyri-mümkün hesab edib.

O, açıqlamasında COVID-19-a qarşı eyni zamanda bir neçə etibarlı və təhlükəsiz peyvəndin hazırlanmasını və kütləvi istehsalına başlanmasını inanılmaz tərəqqi kimi təqdir edib. Lakin eyni zamanda qeyd edib ki, bütün dünyada tələb olunan milyardlarla doza peyvəndin istehsalı və çatdırılması üçün zamana ehtiyac var. Buna görə də insanlar qarşıdakı dövrdə səbirli olmalı və təhlükəsizlik qaydalarına ciddi riayət etməlidirlər.

### Epidemik proses yaxın vaxtlarda başa çata bilər

Xəbər verildiyi kimi, ölkəmizdə də peyvəndləmə prosesinə hazırlıq işləri görülür və ən yaxın vaxtlarda prosesə start veriləcək. Vaksinlərin alınıb gətirilməsi ilə əlaqədar aparılan bütün danışıqlar müsbət nəticə verib və yanvarın axırlarına 4 milyon doza vaksinin respublikamıza gətiriləcəyi gözlənilir. Əhalinin vaksinasiyasının fevraldan gec olmayaraq başlanılacağı nəzərdə tutulub.

Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazovun verdiyi məlumata görə, dünyada olduğu kimi, ölkəmizdə də ilk mərhələdə risk qrupunda olanlara peyvənd vurulacaq: "Risk qruplarını hər bir ölkə özü müəyyən edir. Bunlar, ilk növbədə, əsasən tibb işçiləri, yaşı 65-dən yuxarı olanlar və bir də uzun müddət xroniki xəstəliklərdən əziyyət çəkənlərdir. Vaksinasiyanın epidemik prosesin qırılmasına təsiri onun kütləvi olduğu halda mümkündür. Ümumdünya Səhiyyə Təşkilatının əvvəlki təcrübəsi göstərir ki, vaksinasiyanın məcburi aparılması neqativ reaksiyalara səbəb olub. Ona görə də onun könüllülük prinsipi əsasında həyata keçirilməsi daha düzgün yoldur".

T.Eyvazovun sözlərinə görə, xroniki xəstəlikləri olanların vaksinasiyadan imtina etməsi hər zaman yoluxma riski ilə üz-üzə qalması deməkdir: "Bunlara xroniki ürək-damar, tənəffüs və endokrin sistemi xəstəliklərindən əziyyət çəkənlər və immun çatışmazlığı olanlar aiddir. Onlar yoluxduqları halda xəstəliyin ağırlaşmasının risk qrupundadırlar, bu zaman fəsadlaşma və ölüm halları da baş verə bilər".

"Vaksinlər öldürülmüş və zəiflədilmiş mikroorqanizmləri, yaxud onların ifraz etdiyi bəzi antigen maddələrdir. Vaksinasiyanın aparılmasının məqsədi əhali arasında kollektiv immunitetin yaranmasına nail olmaqdır. İstər təbii, istərsə də vaksinasiya vasitəsilə yaranan immunitet əhalinin çox hissəsini təşkil edərsə, epidemik proses tez bir vaxtda başa çata bilər", - deyə baş infeksionist qeyd edib.

### Sanitar-epidemioloji vəziyyətə uyğun addımlar atılır

Azərbaycanda qlobal böhrandan minimum itkilərlə çıxmaq üçün bütün qüvvələr COVID-19-a qarşı mübarizəyə səfərbər edilib. Mütəmadi olaraq epidemioloji vəziyyət dəyərləndirilir, mövcud duruma uyğun addımlar atılır.

Ölkəmizdə infeksiyanın yayıldığı ilk günlərdən vəziyyət nəzarətə götürülmüş, genişmiqyaslı tədbirlər həyata keçirilməyə başlanmış, istər insanların sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, istərsə də koronavirus xəstələrinin müalicəsi, səhiyyə infrastrukturunun təkmilləşdirilməsi, yeni xəstəxanaların açılması və tibb müəssisələrinin texniki təchizatı baxımından bütün məsələlər uğurla həll edilmişdir.

Eyni zamanda həyata keçirilən səmərəli maarifləndirmə işi, müvafiq tibbi infrastrukturun yaradılması, profilaktika və müalicə məsələlərinin keyfiyyətli şəkildə həll olunması, xüsusi karantin rejiminin tətbiqi və mərhələli qaydada məhdudlaşdırıcı və yumşaldıcı tədbirlərin həyata keçirilməsi öz müsbət bəhrəsini vermişdir.

Bütün bunlara görədir ki, vətənimizdə pandemiyanın fəsadlarını minimum həddə saxlamaq mümkün olub. Artıq bir neçə vaxtdır ki, koronavirusa yoluxma sayında azalma baş verib. Xəstəlikdən sağalanların sayı isə gündəlik yoluxanların sayını üstələyib ki, bu da xəstəxanaların yükünün nisbətən azalması deməkdir.

Azərbaycan dövləti vətəndaşlarının sağlamlığı, təhlükəsizliyi üçün pandemiyaya qarşı bütün mümkün vasitələrdən istifadə edir. Vətəndaşlarımız isə əldə olunan uğurun qorunub saxlanması və möhkəmləndirilməsi üçün mümkün qədər məsuliyyətli davranmalı, qoyulan qaydalara maksimum şəkildə əməl etməlidirlər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# "Ağdam xatirələrimdə hər zaman möhtəşəm qalıb"



## Qarabağ söhbətləri

**Həyatın nağıllara, dünyanın göyqurşağına, ömrün həzin musiqiyə bənzədiyi zamanları "dondurub" ayrı-ayrı kadrlara sığdıraraq bir yerə topladığı külliyyatı - albomu götürüb yenidən vərəqləməyə başladı...**

**27 ildir tarixin o üzündən boylanan qayğısız günlərin, xoşbəxt çöhrələrin gülümsədiyi bu fotolara baxıb köks ötürürdü...**

**Xəyalən o günlərə yenidən qayıdır, o anları yenidən yaşayır, vətən nisgilini, yurd həsrətini bu yolla azca da olsa ovundurmağa çalışırdı...**

*Keçmişdən danışan o şəkilləri seyr edərək torpağın xoş rayihəsini duymaq istəyirdi...*

*Albomun bəzi səhifələri boş olsa da, əvvəllər orada hansı anlarınsa bir-birini qovduğunu əzbər bilirdi...*

*Hər şəklin öz xatirəsi, öz keçmişi, öz həyatı, öz hekayəsi vardı...*

*Amma bu fotolar təkcə öz xatirələrini, öz hekayələrini pıçıldayan adi şəkillər deyildi...*

*Zamanı və məkanı eyni görüntüdə birləşdirən həmin dövr tarixinin əbədilik başlanğıcı idi...*

*Ağdamın aydın səmasından parlaq günəşin hər yana şəfəq saçdığı, şəhərin ən xoşbəxt, ən gözəl, ən rahat, ən rəngli çağlarının əksi idi...*

*Bütöv bir həyat idi...*

*Bütöv bir tarix idi...*

*Ağdamlı günlərin özü idi...*

*Bir də o görüntülərdə ağrı vardı... Doğulduğun, böyüdüyün, canınla, qanınla, ruhunla bağlı olduğun doğma torpağına ayaq basa bilməməyin ağrısı...*

*Bu dəfə isə illərin həmdəmi olan albomunu tamam başqa hisslərlə vərəqlədi...*

*Artıq 27 illik həsrət başa çatmışdı.*

*Artıq ata-baba yurduna gedə, el-obasına qovuşa, torpağın ətrini içinə çəkə biləcəkdi...*

*Artıq ürəyində sızıltı, ağrı-acı yox, sevinc, xoşbəxtlik, ümid vardı...*



*Artıq başqa bir albom düzəltməyin zamanı başlayacaqdı... Ağdamın işğaldan sonrakı dövrünü, yeni tarixini, yeni həyatını, yeni mənzərəsini əks etdirən fotolardan ibarət albom...*

"Qarabağ söhbətləri"ndə bu dəfə Milli Məclisin Elm və təhsil komitəsinin sədri, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor Bəxtiyar Əliyevin Ağdam dünyasına baş vurduq...

### Həyatın Ağdam başlanğıcı...

- Qarabağ - Ağdam mənim həyatımdır. Həyatımın başlanğıcı, davamı, uşaqlıq, yeniyetməlik illərim Ağdamla bağlıdır. Orada doğulub boya-başa çatmışam, orada məktəbə getmişəm. Sonra müstəqil həyat yoluna, ali məktəb və əmək fəaliyyətinə başlamışam. Uşaqlıq xatirələrim, dünyayla ilk tanışlığım oradan başlayr. Və bu tanışlıq təkcə Ağdamla kifayətlənmir. Qarabağın bütün bölgələri - Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl, Kəlbəcər, Şuşa, Laçın və oraların dağları, çayları, meşələri, Qarqarın, Xaçının, Tərtərin zümzümələri uşaqlığımızın, gəncliyimizin ilk gözəl mənzərələri, məkanları olub. O vaxtlar dünyanın çox gözəl, rəngarəng, rahat, təhlükəsiz olduğunu düşünürdük. Elə bilirdik dünya elə belədir. Amma sonradan həyat göstərdi ki, belə deyilmiş...

Dünyanın, Qarabağın, Ağdamın belə firavan zamanlarında 1961-ci ilin Novruz bayramı günü müəllim ailəsində dünyaya gəlmişəm. Bir bacı və beş qardaşıq. Ailənin üçüncü övladıyam. Mən dünyaya gələndə atam kənd məktəbinin direktoru, anam isə ibtidai məktəb müəlliməsi idi. Yadımdadı, bir-iki dəfə getmişdik yanına, bir neçə gün də orada qalmışdıq. Ancaq atam orada az müddət işlədi. Sonradan partiya içinə cəlb edildi.

Atam Həmzə Əliyev Azərbaycan Dövlət Universitinin Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdi. Elmi tədqiqatla da məşğul idi. Amma ailə böyük idi, həm də işi, vəzifəsi ilə əlaqədar elmi fəaliyyətini dayandırmalı olmuşdu. Ömrünün böyük hissəsini rəhbər dövlət işində çalışıb, Ağdam rayon Partiya Komitəsində şöbə müdiri, sonra ən böyük sovxozun direktoru, Ağdam Rayon İcraiyyə Komitəsi sədrinin birinci müavini, Ağdam RİH başçısının müavini və Ali Sovetin deputatı olub. Rayonun tanınmış, görkəmli ziyalılarından, rayon üçün böyük işlər görmüş şəxslərdən biridir. Hamının dərin hörmət və rəğbətini qazanmışdı. Bu gün də ağdamlılar atamı məclislərində görəndə qürur duyur, böyük hörmət göstərir, ətrafına toplaşırlar. İndiyə qədər bir nəfərə rast gəlmədim desin ki, ona müraciət etdik, kömək göstərmədi.

Mən Ağdam şəhər 2 nömrəli beynəlmiləl orta məktəbdə təhsil almışam. Eyni zamanda musiqi məktəbində oxumuşam. O vaxt Ağdamda elə bir ailə yox idi ki, övladlarından biri musiqi məktəbinə getməsin. "Qarabağ bülbülləri" ansamblı yarananda mən o ansamblın üzvü oldum. Çox maraqlı idi. İlk ifaçımız da gözəl səsi olan Tacir Şahmalıoğlu idi...

### Ömrün yaradıcı çağları...

- Bir də Ağdamda Gənc texniklər yaradıcılıq stansiyası var idi. Boş vaxtlarımda orda iki dərnəyə gedirdim - texniki yaradıcılıq və foto-kino studiyasına. Hər iki sahəyə böyük marağım var idi. O vaxt kino çəkmək hamı üçün təəccüblü idi. Atam mənə fotoaparat və kinokamera almışdı. Həyətimizdə anbarın bir hissəsini özümə laboratoriya etmişdim. Qaranlıqda plyonkanın neqativini aşkarlamaq, xüsusi məhlullardan istifadə edərək qırmızı işıqda şəkilləri fotokağıza çıxarmaq, sonra qurutmaq lazım idi. Uzun proses idi...

Bir fotoalbom düzəltmişdim. Əsasən öz çəkdiyim şəkilləri toplayırdım. Uşaqlıq, məktəb, tələbəlik illərimdən də fotolar toplamışdım.

Ağdamda keçirilən müxtəlif paradlardan həvəskar film çəkirdim. Hətta bir paradı çəkəndə rayon partiya komitəsinin birinci katibi tribunadan görüb maraqlanmışdı. Sonra mənimlə söhbət də etdi və təklif etdi ki, Moskva Dövlət Kinematoqrafiya İnstitutuna zəmanət verək, get orada oxu. Buna görə bir az mübahisəmiz oldu. Çünki mənim başqa arzularım, planlarım vardı...

"Qarabağ bülbülləri" Bakıda festivala dəvət almışdı. Anam getməyimə icazə vermədi. İkinci dəfə Polşada uşaq ansambllarının festivalı keçirilirdi. Yenə də evdən icazə vermədilər. Beləcə, uzaqlaşdım.

O biri dərnəkdə isə elektriklə işləyən traktorlar düzəldirdim. Onları idarə etmək üçün bir mərkəz yaradılır və orda əyləşən operator onları idarə edir. Traktor məsafədən idarə edilərək yeri şumlayır, səpin aparır, digər işləri görür. O vaxt onlar batareyalarla işləyirdi. Bu ideya əsasında düzəltdiyim model-maket rayonda birinci yeri tutmuşdu. 70-ci illərin əvvəllərində bu, əlbəttə, çox maraqlı və yenilikçi ideya idi. Bakıda gənc texniklərin respublika müsabiqəsi keçirilirdi. Yenə məni getməyə qoymadılar. Başqa uşaqlar getdilər, mənim də işimi apardılar. Özüm orda olmasam da, layihəm diploma layiq görüldü. Fizika müəllimimiz, həm də GTS-nin rəhbəri Cahangir müəllim diplomumu gətirdi.

Bu hadisələr mənə pis təsir etdi. Sanki küsdüm, incidim. Uzaqlaşdım hər iki sahədən. Foto-kino dərnəyinin rəhbəri Ağdamın ovaxtkı "Lenin yolu" qəzetinin fotomüxbiri, indi Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının prezidenti, Əməkdar jurnalist Eldar İsmayılov idi. Dostlaşmışdıq, çox həvəsliydim film çəkməyə. Onunla birlikdə "Qarabağ bülbülləri" haqqında qısametrajlı film də çəkib beynəlxalq festivala göndərmişdik. Qarqar çayında uşaqlar atları çimizdirir, Tacir isə ağacın başına çıxıb oxuyur... Bu, sonuncu işimiz oldu...

Hərdən təəssüf hissi keçirirəm ki, bəlkə də o vaxt mübariz olmaq lazım idi. Bəlkə festivallara gizli getmək lazım idi. Amma bizi elə tərbiyə etmişdilər ki, normalardan kənara çıxmaq olmazdı.

### O kadrlar Ağdamın işğaldan əvvəlki həyatının tarixi əksidir

- Ovaxtkı çəkilişlərimin bəziləri hələ də məndə qalır. Məsələn, məktəbimizin son zəngindən müəyyən epizodlar var. Ağdamın mərkəzində Mədəniyyət Mərkəzinin qarşısında "Fərhad"ın heykəli dediyimiz möhtəşəm abidə vardı. O meydandan ikitərəfli yol gedirdi. O vaxt SSRİ-də belə yollar az idi. Uzunluğu bəlkə də 5 kilometr olan bu yol şəhərin bir tərəfindən o biri tərəfinə qədər uzanırdı. Həmin o meydandan başlayaraq məscidin qarşısında salınmış təzə parkı, fəvvarələr meydanını, yeni tikilmiş 3 mərtəbəli şüşəli ticarət mərkəzini (təzə univermağı), ikitərəfli yolu kameramla lentə almışdım.



Həyətimizdə çarhovuzumuz vardı. Həmişə təzə su ilə doldurulurdu. Hərdən qaydaları pozub orda üzürdük, hərdən balıq saxlayırdıq. O çəkilişlər də qalıb. Dağları gəzməyə gedəndə çəkilişlər etmişdim. İndi də hərdən baxırıq o lentlərə... O günləri xatırlayırıq, o anları yenidən yaşayırıq. O kadrlar, fotolar tək mənim həyatımın bir parçası, xatirəsi deyil. Həm də Ağdamın işğaldan əvvəlki dövrünün, o həyatının tarixi əksidir.

O zamanlar çəkdiyim fotoşəkilləri paylayırdım, amma neqativlərini saxlayırdım. Fikirləşirdim ki, arxiv mənim özümdədi, lazım olanda çıxarda bilərəm. Təəssüf ki, Bakıda bir mənzildən digərinə köçəndə qutu yoxa çıxdı. Bunun fərqinə gec vardım. Uzun müddət keçəndən sonra yadıma düşdü, axtardım, amma tapa bilmədim. 70-ci illərin əvvəllərindən tələbəlik illəri də daxil olmaqla bütün foto plyonkalarım, neqativlərim itdi. Qohumlarda, yoldaşlarda şəkillər qalır bəlkə də... Özümdə isə tək-tük şəkil qalıb. Albomum da qalır, amma şəkillərin çoxu yoxdur. Moskvada təhsil alanda albom Ağdamdakı evimizdə idi. Kimə nə şəkil lazım idisə, gəlib ordan götürürdü.

Əslində, çox da heyifsilənmirəm buna. Görünür, o şəkil kiməsə çox lazım olub. Məndə qalmaqdansa, başqasına fayda veribsə, yaxşıdır...

### Albomun son səhifəsi o toplantıdakı şəkil və qeydimlə bitir

- Albomun sonuncu fotosu tələbə zamanı Ümummilli Lider Heydər Əliyevlə görüşümüzdəndir....

Mən artıq 7-ci sinifdən şərqşünas olmaq arzusundaydım, özü də yalnız M.V.Lomonosov adına Moskva Dövlət Universitetində oxumaq istəyirdim. Azərbaycanın eramızdan əvvələ gedib çıxan çox qədim tarixini, mədəniyyətimizi, Şərqin sehrli-sirli aləmini öyrənmək eşqi məndə şərqşünaslığa böyük maraq yaratmışdı. Yəqin ki, burada babamın mənə uşaqlıqda ərəb əlifbasını öyrətməsi və sonradan bu əlifba ilə o zaman çap edilmiş azərbaycanca kitabları sərbəst oxumağım, Quran haqqında, Bağdad haqqındakı söhbətləri də təsir göstərmişdi.



Ona görə də Moskva Dövlət Universitetinin Asiya və Afrika ölkələri institutuna (Şərqşünaslıq fakültəsi belə adlanırdı) hazırlaşırdım. O vaxtlar Moskva Dövlət Universitetinə imtahanlar Bakıdan 15 gün tez başlayırdı. Ona görə sənədlər 15 iyula kimi qəbul olunurdu.

Ağdam rayon Komsomol Komitəsindən mənə zəmanət verdilər. Orta məktəbi əla qiymətlərlə bitirdiyim üçün mənə fərqlənmə attestatı (qırmızı) verdilər, halbuki qızıl medal düşürdü. Getdim Moskvaya. Amma sənədlərimi götürmədilər. Dedilər, rayon komitəsindən zəmanət kifayət deyil. Mərkəzi Komitənin zəmanəti olmalıdır. Bu sənədi almaq isə artıq çox gec idi. Mən o vaxt məşhur ziyalımız Moskva Dövlət Universitetinin professoru Əziz Şərifə müraciət etdim. Söz verdi ki, kömək edəcək. Amma səhərisi gün dedi ki, rektorla danışdım, zəmanətsiz sənəd qəbulu heç cür mümkün deyil. Dedi ki, bu fakültədən başqa hansını istəyirsənsə seç, sənə kömək edəcəyik. Bu sözdən çox incidim, mənə çox pis təsir etdi. Mən özümə güvənirdim. Sadəcə sənədlərimin qəbul edilməsini istəyirdim. Sonralar tələbəlik illərində professor Əziz Şəriflə çox görüşlərimiz, söhbətlərimiz oldu...

Qayıtdım gəldim Ağdama. Oradan da getdim Turşsuya, ailəmiz orada dincəlirdi. Heç yerə sənəd vermək istəmirdim. Anamın təkidilə getdim Bakıya. Azərbaycan Dövlət Universitetinə gəldim Moskva Dövlət Universitetinə Psixologiya fakültəsinə elan olunmuş yerə sənəd verdim. Moskvaya gedəndə oradan kitab almışdım və MDU-nun fakültələri haqqında, o cümlədən Psixologiya fakültəsi haqqında o kitabdan oxumuşdum və xoşuma gəlmişdi. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Psixologiya fakültəsinə qəbul oldum.

O vaxtlar Ümummilli Lider Heydər Əliyev Azərbaycanın rəhbəri kimi SSRİ-nin ali məktəblərinə qəbul olunmuş tələbələrlə görüş keçirirdi. Belə bir görüşdə iştirak etmək mənə də qismət oldu. Ovaxtkı Dzerjinski adına klubda təntənəli tədbir keçirildi. Bizə xüsusi geyim forması vermişdilər. Heydər Əliyev Mərkəzi Komitənin 1-ci katibi kimi böyük nitq söylədi, bizə tövsiyələr verdi, respublikanın yüksəkixtisaslı kadrlara böyük ehtiyacı olduğunu və bizlərə böyük ümidlər bəslədiyini bildirdi. Onda biz gənc idik, mahiyyətinə dərindən varmırdıq, amma başa düşürdük ki, qarşımızda hansı vəzifələr durur... Albomumun son səhifəsi məhz o toplantıdakı şəkil və qeydimlə bitir. Ondan sonra albomu davam etdirmədim. Düşündüm ki, bundan sonra tamam başqa albom olmalıdır... O albomu isə həyatın özü davam etdirəcəkdi...

2000-ci ildə ilk dəfə Milli Məclisin deputatı və Avropa Şurası Parlament Assableyasına milli nümayəndə heyətinə üzv seçildikdən sonra nümayəndə heyətini qəbul edərək öz tövsiyələrini verən Ümummilli Lider Heydər Əliyev qeyd etdi ki, bu gün burada vaxti ilə mənim ən yaxşı universitetlərə təhsil almağa göndərdiyim gənclər var. İndi onlar müstəqil dövlətimizin quruculuğunda fəal iştirak edirlər. Mən bunun üçün çalışırdım, bu, mənim amalım idi. Mən çox şadam ki, Ulu Öndərin Moskvada təhsil almağa göndərdiyi həmin gənclərdən biri də mən olmuşam və həmişə onun mənə göstərdiyi böyük etimadı doğrultmağa çalışmışam.

Bizim fakültə ilə Asiya və Afrika ölkələri institutu Moskva şəhərinin düz mərkəzində eyni həyətdə yerləşirdi. Daim onun tələbələri ilə ünsiyyətdə idik. 2-ci kursa keçəndə rəhbərlikdən təklif etdilər ki, gəl, səni ora keçirək. Razı olmadım, dedim, yox, artıq fikrimi dəyişmişəm. Bu günə qədər də şadam ki, bu peşəni seçmişəm. 1983-cü ildən bu günə qədər psixologiyadan ayrılmamışam. Universiteti 1983-cü ildə bitirib Bakıya gələndən 16 mart 2020-ci ilə kimi, yəni Milli Məclisin Elm və təhsil komitəsinə sədr seçilənə qədər düz 36 il BDU-nun Psixologiya kafedrasında işləmişəm. Laborantlıqdan müəllim, baş müəllim, dosent, professor, kafedra müdiri vəzifəsinə kimi yüksəlmişəm. Milli Məclisin komitə sədri seçiləndən sonra universitetdə işdən çıxdım. Çünki pedaqoji fəaliyyətə vaxt qalmırdı, amma elmi yaradıcılıqla məşğul oluram, bunsuz mümkün deyil...

Moskvada təhsil alan dövrdə gördüm ki, Azərbaycana həm qibtə, həm də paxıllıq edən insanlar var. O vaxt Ümummilli Lider Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin I müavini və Siyasi Büronun üzvü idi. Bu, çox böyük vəzifə idi, həm də onun özü xarizmatik şəxsiyyət idi. Mənim də soyadım Əliyev olduğu üçün müəllim və tələbələr bir az ehtiyatla davranırdılar. Amma açıq şəkildə şovinist kimi davrananlar da var idi. Onlardan ikisi yaxşı yadımdadır. Biri fakültəmizin dekan müavini idi. Deyirdi, Azərbaycandan bura gəlib yer tutursuz, qoymaram burda oxuyasınız. 1-ci kursun I semestrində çox çalışdı məni imtahandan kəssin. Bütün kurs qapını açıb imtahanı maraqla izləyirdi görsün sonu nə ilə nəticələnəcək. Komissiyada 4 müəllim vardı. Dedilər biletin bütün suallarına, bizim, sizin suallarınıza cavab verdi, onu necə kəsək? Beləcə, heç nə edə bilmədi. Sonralar, yuxarı kursda onunla dostlaşdıq. Amma bu, mənə yuxusuz gecələr, əziyyət bahasına başa gəlirdi. Olduqca çətin fənlər keçirdik, tələbkarlıq yüksək idi. Ağdamdan gəlmiş, Azərbaycan dilində təhsil almış gənc indi rus dilində yeni terminləri, elmləri öyrənirdi. Bu basqıları başa düşə bilmirdim. Amma mübarizə aparmağa çalışırdım.

İkincisi, bir professor qadın idi. O da II semestrdə açıq şəkildə təzyiq göstərir, şovinist çıxışlar edirdi. Bir dəfə cavab verdim ki, biz sizin hesabınıza oxumuruq, təhsil haqqımızı öz dövlətimiz-Azərbaycan ödəyir. O vaxt belə söz demək ciddi problem yarada bilərdi. Sonra mənimlə söhbət etdilər və dedilər ki, gəncsiniz, harda nə danışdığınıza diqqət verin. Başa düşdüm ki, məndən şikayət ediblər. Həqiqətən də bizim təhsil haqqımızı Azərbaycan dövləti ödəyirdi. Özü də yuxarı kurslarda əlaçı təqaüdü alırdım - 55 manat, o vaxt üçün böyük pul idi. işləyirdim. Yay vaxtı hər yerdə olduğu kimi, I və II kursda tələbə inşaat dəstəsində tikintilərə gedirdik, ya da universitetdə müəyyən təmir işləri görürdük, əlavə pul qazanırdıq. Fəal olduğum üçün həmkarlar komitəsinin büro üzvü idim. İctimai fəallığıma görə 3-cü kursda məni Moskva Dövlət Universitetinin Tələbə Komitəsinin sədr müavini seçdilər. Bu tələbə üçün çox yüksək vəzifə idi. Biz universitet üzrə ciddi qərarlar qəbul edirdik.

### 20 Yanvarla bağlı jurnalları Moskvada payladığım üçün DTK-ya çağırıldım

- Xatirələr bizim həyatımızdır. Kino lenti kimi hər zaman xəyalımızda dolaşır. Ağdam mənim xəyalımda, xatirələrimdə hər zaman möhtəşəm qalıb... Çox inkişaf etmiş rayon və şəhər idi. Son illər o qədər sürətlə tikilirdi ki, gedəndə özüm də təəccüblənirdim. Öz-özümə deyirdim, bu binaları nə vaxt tikdilər, küçələr necə dəyişib?! Özü də şəhər planlı şəkildə tikilirdi. İndiki xarabalıqlarına baxanda da görünür necə simmetrik küçələri var. Yağış suları üçün ayrıca xətlər, hər yerdə kanalizasiya sistemi vardı. Çoxlu parklar salınmışdı. Gözəl infrastruktur, sənaye müəssisələri tikilmişdi. 80-ci illərin Ağdamında onlarca sənaye müəssisəsi, o cümlədən aerokosmik cihazqayırma zavodu var idi. O məhsulların bir çoxu hərbi təyinatlı idi və SSRİ-nin çox yerinə göndərilirdi. Bu, rayonun elmi potensialının güclənməsinə, yeni texnologiyaların tətbiqinə imkan verirdi. İndiki dillə desək, artıq Ağdamda yüksək texnologiyalara əsaslanan yeni sənaye məhəllələri yaranırdı. Böyük planlar, arzular var idi...



Ağdam kimi nəhəng şəhəri söküb dağıtmaq üçün neçə illər və nə qədər qüvvə lazım idi ki, işğalçı Ermənistan o boyda şəhəri indiki vəziyyətə salsın. Əminəm ki, bu hərbi cinayəti törədənlər cəzalarını alacaqlar...

O vaxt Qarbağ hadisələri başlayanda mən tez-tez Ağdama gedirdim. 1987-ci ildə daşnak Zori Balayan Yerevanda Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin mətbəəsində "Ocaq" adlı kitab çap etdirdi. Kitab türklərə, azərbaycanlılara nifrət, düşmənçilik yayır və torpaqlarımıza qarşı işğalçılıq siyasətinə rəvac verirdi. Azərbaycanın bir qrup ziyalısının təşəbbüsü ilə Moskvaya məktub yazdıq. Tələb etdik ki, buna qiymət verilsin, tədbir görülsün. Necə ola bilər heç bir həqiqəti əks etdirməyən, xalqlar arasında nifaq salan, düşmənçilik toxumları səpən belə uydurma əsər kommunist partiyasının mətbəəsində çap edilsin. Bu fakt və sonra baş verənlər göstərdi ki, terrorçuluq həmişə Ermənistanın dövlət siyasəti olubdur. Təəssüf, buna kifayət qədər ciddi münasibət bəslənilmədi. Azərbaycan rəhbərliyi də buna ciddi reaksiya vermədi. Məktubu yazanlar Moskvanın təpkisi ilə rastlaşdılar. Ardınca erməni hiyləsinin nəticəsi olaraq Heydər Əliyev SSRİ rəhbərliyindən uzaqlaşdırıldı və bu, xalqımızın əzablı günlərinin başlanğıcı oldu...

Sonra bu proseslər daha da dərinləşdi. Əvvəl Ermənistanda yaşayan azərbaycanlılar soyqırımına məruz qaldılar, etnik təmizləmə başladı, soydaşlarımız öz əzəli, tarixi dədə-baba yurdlarından qovuldular... 1987-ci ilin dekabrından Ermənistanın Qafan rayonundan qovulan azərbaycanlılar ayaqyalın, heç nəsiz qarlı dağlardan piyada keçərək Azərbaycana-Qarabağa gəldilər. Oradan da ovaxtkı SSRİ rəhbərliyinin təkdi ilə Sumqayıta və digər rayonlara köçürüldülər. Növbəti ssenari Xankəndidəki azərbaycanlıların qovulması, evlərinin yandırılması, öldürülməsi prosesilə bağlı oldu. Bütün bunların fonunda Ermənistanın atdığı addımlara Moskvadan dəstək verilir, Azərbaycana isə ciddi təzyiq göstərilirdi. Sonra ermənilərin və onların havadarlarının əli ilə Sumqayıtda Azərbaycan xalqına qarşı düşünülmüş, planlaşdırılmış təxribat törədildi. Bu bəs deyilmiş kimi, azərbaycanlılara qarşı 20 Yanvar faciəsi törədildi, yüzlərlə dinc sakin sovet ordusunun muzdluları tərəfindən qətlə yetirildi.

20 Yanvar hadisələrindən sonra bu faciəni əks etdirən xronika şəklində "Qara yanvar" jurnalı çap olundu. 1990-cı ilin aprelində Moskvada komsomolun qurultayı keçiriləcəkdi. Azərbaycandan gedən nümayəndə heyətinin tərkibində BDU-nun müəllimi kimi mən də vardım. Biz o jurnallardan gizli şəkildə aparıb Moskvada yaymaq qərarına gəldik. Qurultayda bütün müttəfiq respublikalardan nümayəndələr, xarici jurnalistlər var idi. Jurnalın nüsxələrini onlar arasında yaydıq. Mərkəzi televiziyalara müsahibələr verdik. Mən o vaxt birinci kanala müsahibəmdə dedim ki, bütün respublikalar müstəqil olmalıdır, komsomol təşkilatı da müstəqil olmalıdır və qarşılıqlı münasibətlər bərabərlik, könüllülük əsasında qurulmalıdır. Gecə saat 24:00 xəbərlərində bu müsahibəm yayılandan sonra aləm qarışır. Mixail Qorbaçov Bakıya zəng edir və bildirir ki, sizin nümayəndə SSRİ-ni dağıdır, tədbir görün. Bütün bunlara baxmayaraq, biz öz mövqeyimizdə israrlı idik.

Bakıya qayıdandan sonra mənimlə söhbətlər oldu, suallar verdilər, mən də cavablarını verdim. O vaxt ədalətli, vicdanlı insanlar bizi dəstəkləyirdi. Ancaq təəssüf ki, həmin dövrdə bizdə birlik, siyasi lider olmadı... Xalqın ümid bəslədiyi, köməyə harayladığı xilaskar siyasi liderə qarşı isə bəlli qüvvələr çirkin kampaniyalar aparmaqla məşğul idi... Beləliklə də, faciələrimiz baş verdi, igid oğullarımız mərdliklə vuruşdular, şəhid oldular, amma torpaqlarımız işğal edildi.

### Valideynlərimin arzusu gerçəkləşdi, indi qalıb evimizi tikmək...

- O vaxt azərbaycanlılardan ov tüfəngləri ni də yığmışdılar. Amma vəzifədə olan, imkanlı, vətənpərvər insanların köməyi ilə silahlar alınırdı. Həmin silahlarla özünümüdafiə batalyonları yaradıldı. Çalışırdıq bacardığımız qədər kömək edək. Sonradan özünümüdafiə dəstələrini Ağdamdan çıxartdılar, guya Surət Hüseynovun hərbi birləşməsi oranı qoruyacaqdı. Lakin nəticəsi o oldu ki, Ağdam işğal edildi.

Təhlükə artanda uşaq və qadınları Ağdamın üst hissəsindən aşağı hissəyə çıxarmağa başladılar. Çox az adam Bərdəyə, Gəncəyə, Bakıya getdi. Çünki heç kim inanmırdı bu boyda Ağdam işğal oluna bilər. Hamı fikirləşirdi ki, döyüş əməliyyatları gedir deyə, dinc əhali daha az təhlükəli yerə getsə yaxşıdır. Hətta olub ki, insanlar günlərlə Ağdamın giriş hissəsində yolun kənarlarında, maşınların kölgəsində gözləyirdilər ki, döyüş səngiyəcək, qayıdacaqlar evlərinə. Özlərinə əlavə paltar da götürmürdülər.

Bizim də ailəmiz sona qədər Ağdamda oldu. Bir qardaşım Sankt-Peterburqda, mən və böyük qardaşım Bakıda işləyirdik. Qalan hamı Ağdamda qalırdı. Atam o vaxt rayon İcraiyyə Komitəsinin sədr müavini, Ali Sovetin deputatı idi. Ağdamda yaradılmış qərargaha rəhbərlik edirdi. Son günə qədər iş başında olub. Hətta şəhər boşaldılmış, icra hakimiyyətinin binası "Qrad"dan atəşə tutulurdu, o, yenə işdəydi.

İşğaldan sonra valideynlərim bir müddət Quzanlıda yaşadılar. 1992-ci ildə hakimiyyətə gələn qüvvələr də əvvəlki hakimiyyət kimi atamla mübarizəyə başladı və onu işdən azad etdilər. Nə qədər paradoksal olsa da, hər ikisinin də ittihamı o idi ki, siz Heydər Əliyevi dəstəkləyirsiniz. Sonra Bakıya köçdülər. Atam 1994-cü ildən 2000-ci ilə qədər Bakıda işlədi. Bütün bu illər ərzində atam da, anam da bir arzu, ümid və inamla yaşayıblar - torpaqlarımız geri alınacaq, Ağdama qayıdıb yenidən evimizi tikəcəyik...

Şükür ki, onların arzusu gerçəkləşdi, indi qalıb evimizi tikmək...

### Bütün şəhidlərimizin intiqamı alındı

- Bir tələbəm var idi. Savadlı, vətənpərvər və cəsur insan idi - Milli Qəhrəman Nadir Əliyev. Ağdamda Milli Təhlükəsizlik Nazirliyinin bölmə rəisi, kəşfiyyat qrupunun rəhbəri idi. Onu nazirlikdə yüksək vəzifəyə təyin etmişdilər, amma icazə alıb Ağdama döyüşlərə getdi. Deyirdi düşmənə imkan verməyəm ki, Ağdama girsin. Qəhrəmancasına şəhid oldu. Bizi ən çox ağrıdan da o idi ki, bu cür igidlərimiz canlarından keçdilər, şəhid oldular, amma yenə torpağımız Ermənistan tərəfindən havadarlarının köməyi ilə işğal edildi və onların ruhları düşmən əsarətində qaldı.



İndi isə təsəllimiz odur ki, Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə igid əsgər və zabitlərimiz torpaqlarımızı işğaldan azad edərək bütün şəhidlərimizin intiqamını aldılar. İndi onların ruhu rahat və şaddır. Bu döyüşlərdə iştirak edən bütün döyüşçülərimiz, şəhidlərimiz ən xoşbəxt insanlardır. Onlar Azərbaycan dövlətinə və xalqına qürur verdilər.

Bu gün Azərbaycan xalqı ikinci dəfə özünə qayıdır, özünü tanıyır və dünyaya tanıdır. Artıq Azərbaycan əvvəlki Azərbaycan deyil. Artıq xalqımız əvvəlki xalq deyil. Azərbaycan bütün dünyaya sübut etdi ki, ən sülhpərvər dövlət və xalqdır. Qalib xalq, qalib dövlət kimi yeni dövlətçilik ənənəsini dünyaya təqdim etdi. Dünyaya nümayiş etdirdi ki, bütün siyasi partiyalar, təbəqələr, cərəyanlar bir amal - dövlətçilik, azadlıq, müstəqillik uğrunda Ali Baş Komandanın ətrafında sıx birləşdi, zəfər çaldı. Ona görə də, bu gün siyasi mövqeyindən, dini baxışlarından, sosial mənşəyindən asılı olmayaraq, hər bir azərbaycanlı qürurludur. Bundan sonra da hər birimiz qürurla deyəcəyik - Mən fəxr edirəm ki, azərbaycanlıyam!

### Hə, bax indi rahat nəfəs almaq olar...

- Bu illər ərzində "Qarabağ şikəstəsi" beynimdə çox səslənib, daima məni körəldib. Düşünürdüm, bizim borcumuz var. Əvvəlcə o borcu qaytarmalıyıq, torpaqları azad edəndən sonra isə nəfəsimizi dərib deyə bilərik "bağışlayın, gec oldu, amma oldu"... Bu hissləri yaşamaq çətindir.

Bütün torpaqlarımız, eləcə də Ağdam işğaldan azad olunub, amma mən içimdəki o yükdən, ağırlıqdan hələ də xilas ola bilməmişəm. Yəqin ki, çox böyük itkilərimiz olduğuna, dövlətimizə, xalqımıza qarşı ədalətsizliklərlə, haqsızlıqlarla üzləşdiyimizə görə. Həm də xarabalıqlara çevrilmiş şəhər və kəndlərimizi əvvəlki görkəminə qaytarmayana qədər o ağırlıq ürəyimizdə qalacaq. Baxıb deyəcəyik bax bu evdə filankəs yaşayırdı, uşaqlar bu məktəbə gedirdi... Yenidən qurulacaq şəhər və kəndlərimizdə uşaqlar bağçaya, dərsə gedəndə, məktəbdə zəng çalınanda, kinoteatrlar açılanda, parklarda insanlar deyib-güləndə yəqin ki, mən də dərindən nəfəs alıb, deyəcəm - hə, bax indi rahat ola bilərik...

Bundan sonra qarşımızda duran əsas vəzifə işğaldan azad edilmiş bütün şəhər və kəndləri abadlaşdırmaq, əvvəlkindən də gözəl inkişaf etdirməkdir. Hər ağdamlı Ağdamda bir ev, yurd qurmalıdır. Məktəb, bağça tikməli, çoxlu ağac əkməli, parklar salmalıyıq. Ağdama yeni həyat gələcək. Bax onda bu torpaq uğrunda şəhid olanların ruhu qarşısında rahatlıq duyacağıq ki, bəli, sizin göstərdiyiniz qəhrəmanlıq hədər getməyib.

Məcburi köçkünlər üçün salınan müasir şəhərciklərin hər birinin açılışında çıxış edən zaman Prezident İlham Əliyev deyirdi ki, bu binalar sizin rahat yaşamağınız üçün tikilir, amma onlar müvəqqətidir. Biz torpaqlarımızı işğaldan azad edəndən sonra şəhər və kəndlərimizdə daha gözəl binalar tikəcəyik, xoşbəxt həyat quracağıq. Bəlkə də buna inanmayanlar da var idi. Amma hamımız Prezidentimizə inanmışıq, güvənmişik. Çünki Prezident dediyini həmişə edib, bunu da etdi. Görkəmli sərkərdə öz qəhrəman ordusu, xalqı ilə Azərbaycanın Zəfər tarixini yazdı. Tezliklə bütün şəhərlərin, kəndlərin baş planları hazırlanacaq, tikinti-quruculuq işləri vüsət alacaq. Azərbaycanın İntibah dövrü başlayacaq...

1993-cü ildən 2020-ci ilə qədər o yerlərin keçən yolunu xəyallarda yaşamışıq. İndi isə XXI əsrin müasir kəndlərini, şəhərlərini, yollarını quracağıq... Artıq Qarabağa yuxularımızda, xəyallarımızda, xatirələrimizdə yox, ürəyimiz istəyən zaman gedə biləcəyik. Könlümüzə hansı yer düşəcəksə, oranı ziyarət edəcək, gəzəcəyik...

### Nənəmin bişirdiyi o çörəyin ətri bir gün də olsun yadımdan çıxmadı

- Ağdam 27 il yuxularımdan çıxmadı... Ağdamı yuxularımda qarış-qarış gəzdim... Tək Ağdam yox, Şuşada uşaq vaxtı etdiyimiz nadincliklər, futbol oynamağımız, Kəlbəcərdə dağlara, bulaqlara çıxmağımız, İstisuda yumurta bişirməyimiz... hər zaman röyalarıma girirdi. İstisuda yumurtanı qoyurduq suya, mərc gəlirdik görək neçə dəqiqəyə bişəcək... Ağdamın bol sulu kəhrizləri vardı. Gizlin gedib kəhrizin suyu çıxan yerlərə girib maraqla baxırdıq. Su dupduru, buz kimi olurdu, amma onu içəndə boğazımız ağrımazdı...

Şahbulaq qalasında o qədər olmuşuq... O qala 80-ci illərdə bərpa olunmuşdu. Çox gözəl yer idi. Dağlarımızda qədim qalaların, məscidlərin qalıqları vardı. Oralara gedirdik... Ağdamın özü şəhər kimi o qədər maraqlıydı, gözəl, gəzməli-görməli yerləri çox idi. İmarət unikal kompleks sayılırdı. Şəhərin özünün arxitekturası müasir olsa da, tarixi abidələrlə də zəngin idi. Axı, bu şəhərin minillik yaşı var. 27 il ərzində o yerləri bir-bir yuxularımda yenidən gəzmişəm. Və həmişə də inanmışam ki, bu yuxular nə vaxtsa gerçək olacaq.

Yaxşı xatirimdədir, nənəm təndirdə çörək bişirirdi. O çörəyin ətri bütün qonşulara yayılırdı. Çörək bişəndən sonra ailə sayından asılı olaraq qonşulara pay göndərilirdi. Əvvəllər sual verirdik ki, ay nənə, biz çox böyük ailə deyilik axı. Neynirsən bu qədər xəmir qatırsan? Böyük teştlə bir xəmir yoğururdu. Bişəndə görürdük ki, qonşuların payı gedəndən sonra özümüzə 7-8 çörək qalıb. Onları da büküb qoyurdu kənara ki, bu da bizim payımızdı. Nənəmin bişirdiyi o çörəyin ətri, o isti qonşuluq münasibətləri bu müddət ərzində bir gün də olsun yadımdan çıxmadı. Həmişə də inamla dedim ki, o təndir yenidən tikiləcək, o çörəklər yenə də bişəcək və ən əsası, o münasibətlər bərpa olunacaq...

*Tezliklə Ağdamın üzərində yenidən Günəş doğacaq. Şəhər əvvəlkindən də çox canlanacaq, gözəlləşəcək. Həyat yenidən öz axarına qayıdacaq...*

*Evlər abadlaşacaq, yurdlar qurulacaq, ocaqlar gur yanacaq... Xoşbəxt, şən, qayğısız insanların sevinc səsləri səmaya yayılacaq...*

*O zaman Ağdamda yeni həyatın, yeni dövrün, yeni tarixin başlanğıcını əbədiyyətə qovuşduracaq fotolardan ibarət yeni bir albom hazırlanacaq...*

**Xəyalə MURADLI,**
**"Azərbaycan"**

Əvvəli 1-ci səh.



# Yüksəliş və inkişafın Naxçıvan modeli

Ulu Öndərin Naxçıvanla bağlı düşüncələri, müəyyənləşdirdiyi inkişaf strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qazanılan uğurların miqyası və əhatə dairəsi genişləndirilir. Ölkə rəhbərinin imzaladığı müvafiq fərmanlarla müəyyən edilmiş sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər əldə edilən nailiyyətləri daha da möhkəmləndir.

Naxçıvanda aparılan yüksək inkişaf, görülən abadlıq və quruculuq işləri məhz dayanıqlı inkişaf konsepsiyasına, aparılan uğurlu siyasətə əsaslanır. Hazırda Naxçıvanın hər bir sakini quruculuğun, sosial-iqtisadi inkişafın, davamlı yüksəlişin real nəticələrini öz gündəlik həyatında hiss etməkdədir.

Təsadüfi deyildir ki, Naxçıvanda həyata keçirilən möhtəşəm quruculuq işləri dövlət başçısı möhtərəm İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilir: *"Naxçıvanın uğurlu inkişafı məni xüsusilə sevindirir. Muxtar respublikanın abadlaşması, yeni-yeni binaların tikilməsi, iş yerlərinin açılması Naxçıvanı möhkəmləndirir. Naxçıvanın yaşaması üçün bütün infrastruktur layihələr həyata keçirilir. Mən çox şadam ki, Naxçıvanda və muxtar respublikanın bütün rayonlarında uğurlu inkişaf gedir"*.

Azərbaycan Prezidenti bu uğurların qazanılmasında muxtar respublika rəhbərliyinin fəaliyyətini və əzmini xüsusi vurğulayaraq deyir: *"Mən Naxçıvanın rəhbəri Vasif Talıbovun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Onun fəaliyyəti nəticəsində burada bu işlər görülür və o da sizə arxalanır. Öz fəaliyyəti ilə Ulu Öndər Heydər Əliyevin tutduğu yolu Naxçıvanda davam etdirir. Bu, çox böyük nailiyyətdir"*.

Müasir dünyamızda qlobal iqtisadi böhranın mənfi təzahürlərinin meydana gəldiyi bir dövrdə sosial-iqtisadi inkişafa nail olmaq və ya mövcud inkişafın dayanıqlığını təmin etmək yalnız güclü əsaslara söykənən düzgün iqtisadi siyasət nəticəsində mümkündür.

Muxtar respublikada sosial-iqtisadi inkişafın təməlində iqtisadi inkişafın sosialyönümlü olması, hər bir vətəndaşın maddi rifahının yüksəldilməsi, iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, iqtisadi tərəqqinin əsas meyarlarından olan azad rəqabət, investisiya mühitinin daha da yaxşılaşdırılması, məhdudiyyətlərin aradan götürülməsi, investisiyaların və sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə olunması və iqtisadi təhlükəsizliyin təminatı üçün aparılmış kompleks işlər dayanır.

Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin açılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verir.

Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, muxtar respublikada sənaye müəssisələri, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanılması, emalı və satışı kompleksləri yaradılır, ərzaq məhsulları üzrə daxili istehsal artır. Bütün bu proseslər muxtar respublikada ümumi daxili məhsulun artımı ilə nəticələnir. Belə ki, 2019-cu ildə ümumi daxili məhsul istehsalının həcmi 2 milyard 839 milyon 650 min manat idisə, 2020-ci ildə bu rəqəm 2 milyard 907 milyon 811 min manat həcmindədir.

Bir sıra istehsal sahələrində məhsul istehsalının həcminin artması, investisiya fəallığının güclənməsi, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi muxtar respublikanın iqtisadi dayaqlarını xeyli möhkəmləndirib. Muxtar respublikada iqtisadiyyatın əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabət qabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində mövcud layihələrin icrası davam etdirilib, stimullaşdırıcı tədbirlər həyata keçirilib. Bu sahədə mühüm malların istehsalının təmini muxtar respublikada sənayenin iqtisadiyyatda xüsusi çəkisini qoruyub saxlayır. Belə ki, Naxçıvan Muxtar Respublikasında sənaye məhsulu istehsalı 1995-ci ildə 9 milyon 133 min manat idisə, 2020-ci ildə bu rəqəm 1 milyard 40 milyon 475 min 900 manat olmuşdur. Ötən il ərzində ümumi daxili məhsulun tərkibində ilk yeri 802 milyon 547 min manatlıq gəlirlə sənaye sahəsi tutub.

Kənd təsərrüfatı, emal sənayesi Naxçıvanda əsas prioritet sahələrdəndir. Kəndlərdə ticarət və xidmət obyektləri daxil olmaqla hər cür zəruri infrastrukturun yer aldığı nümunəvi kənd mərkəzlərinin yaradılması, kənd əhalisinin məşğulluğunun təmin edilməsi bol məhsul əldə etməyə şərait yaradıb. Yaşayış məntəqələrində müasir infrastrukturun qurulması, keyfiyyətli yol çəkilişləri, təbii qazın, işığın davamlı verilməsi, bütün kəndlərin telefonlaşdırılması, kənddə şəhər rahatlığının ən yüksək səviyyədə təmin olunması insanların torpağa bağlılığını daha da artırıb, kənd təsərrüfatının inkişafını təmin edib. Faktlara nəzər yetirdikdə muxtar respublikada mövcud olan ictimai-siyasi sabitliyin fonunda davam etdirilən bu siyasətin böyük uğurlara yol açdığının şahidi olarıq. Bütün bu islahatlar kənd təsərrüfatının ümumi məhsul istehsalının 1995-ci illə müqayisədə 38 milyon 572 min manatdan 537 milyon 585 min manata qalxmasına səbəb olmuşdur.

Aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə verilən güzəştli kreditlər nəticəsində 2020-ci ildə 537 milyon 584 min 800 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuş, 103 milyon 158 min 200 ABŞ dolları həcmində məhsul muxtar respublikadan ixrac olunmuşdur. 2020-ci ildə muxtar respublikaya, ümumilikdə, 82 milyon 27 min ABŞ dolları dəyərində məhsul idxal olunmuş, 428 milyon 520 min 400 ABŞ dolları dəyərində məhsul ixrac olunmuşdur.

Kənd təsərrüfatının əsasını təşkil edən taxılçılıq aqrar sektorun digər bölmələrinin inkişafında həlledici rol oynayır. Taxıl istehsalının artırılması blokada vəziyyətində yaşayan Naxçıvan üçün xüsusilə əhəmiyyətlidir. Sevindirici haldır ki, bu sahə muxtar respublikada hər il daha da inkişaf etdirilir, yeni-yeni nailiyyətlər əldə olunur. Ötən dövrdə muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılmış, 2020-ci ilin məhsulu üçün əkilmiş 36 min 879 hektar sahədən 115 min 649 ton məhsul götürülmüşdür. Məlumat üçün bildirək ki, 2020-ci ilin məhsulu üçün muxtar respublikada 63405 hektar sahədə əkin aparılmışdır. Bu da 2019-cu illə müqayisədə 435 hektar çoxdur. Yeri gəlmişkən, qeyd edək ki, regionun strateji əhəmiyyətini nəzərə alaraq muxtar respublikada əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə qida təhlükəsizliyi sistemi ən yüksək səviyyədə qurulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2016-cı il 11 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmaqdadır. Qeyd edək ki, 2020-ci ilin 9 ayında muxtar respublikada 943 yeni iş yeri yaradılıb ki, bunun da 39,3 faizi daimi iş yerləridir.

Muxtar respublikada inkişafın əsas sahələrindən biri də təmir-quruculuq işlərinin aparılmasıdır. Hazırda bu sahədə görülən işlər davam etdirilir, yeni parklar salınır, inzibati binalar, o cümlədən məktəblər, uşaq bağçaları, səhiyyə ocaqları, idman obyektləri, icra nümayəndəlikləri və bələdiyyə binaları, milli və yerli memarlıq xüsusiyyətləri nəzərə alınan yaşayış binaları yüksək sürətlə və zövqlə inşa edilib vətəndaşların ixtiyarına verilir. Bütün obyektlər müasir kommunikativ sistemlərlə təchiz edilir, yüksəksürətli internetlə təmin edilir. Bir faktı da qeyd edək ki, istifadəyə verilmiş yaşayış evləri 1995-ci ildə 19,6 min kvadratmetr olmuşdusa, 2020-ci ildə bu rəqəm 392 min 982 kvadratmetr olmuşdur.

Müasir dövrdə dayanıqlı inkişafın əsasında elmi-texniki tərəqqinin rolu və əhəmiyyəti ciddi bir faktor kimi qəbul edilir. Elm dövlətin davamlı sosial-iqtisadi və mədəni inkişafını təmin edən mühüm amillərdən biridir. Muxtar respublikamızda elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması və modernləşdirilməsi, elm və təhsil sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə alimlərin, elm və təhsil işçilərinin nüfuzunun artırılması və elmi nəticələrin xaricdə tanıdılması sahəsində bir sıra mühüm addımlar atılır. Naxçıvan Muxtar Respublikasında elmin sistemli inkişafı 1996-cı ildən başlayaraq Naxçıvan tarixi ilə bağlı elmi axtarışların, tədqiqatların aparılmasını zəruri edən "Uluslararası qaynaqlarda Naxçıvan" simpoziumunun keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin imzaladığı sərəncamla başlamışdır. "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında", "Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında", "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında", "Oxunması zəruri olan kitablar haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında" və digər tarixi sərəncamlar tarixi keçmişimizin qaranlıq səhifələrinin elmi axtarışlar və tədqiqatlar nəticəsində, müstəqil düşüncə işığında üzə çıxarılmasına, innovativ layihələrin dəstəklənməsi və tədqiqat nəticələrinin onlarca elmi nəşr vasitəsilə geniş ictimaiyyətə çatdırılması ilə nəticələnmişdir. Dahi Öndər Heydər Əliyevin 2002-ci il avqustun 7-də AMEA-nın Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalaması ilə muxtar respublikamızın elmi mühiti mərkəzləşmiş, sistemli və davamlı inkişaf mərhələsinə qədəm qoymuşdur.

Elmin inkişafını şərtləndirən bu tarixi addımlar Ümummilli Lider Heydər Əliyevin tarixi keçmişimizin öyrənilməsi ilə bağlı tövsiyələrinə əsaslanaraq elmin gələcək inkişafının konturlarını müəyyən etmişdir.

Azərbaycanda informasiyalı cəmiyyət quruculuğu prosesində Naxçıvan aktiv iştirak etmiş, "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" sərəncamla 2019-cu ildən Startap Naxçıvan hərəkatına start verilmişdir. İnnovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən startaplar layihələrin dəyərləndirilməsi və həyata keçirilməsi iqtisadi inkişafla yanaşı, vətəndaşın müasir cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin etmişdir. Startap fəaliyyətinə nəzarət mexanizmini asanlaşdıran internet portalının yaradılması isə dayanıqlı əmək bazarının yaradılmasına, təhsilverənlə işəgötürənlər arasında tələblərin formalaşmasına xidmət etmişdir. Muxtar respublikada innovasiyayönümlü iqtisadiyyata keçid, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan xidmət sahələrinin genişləndirilməsi, elmi tədqiqatların aparılması və nəticələrinin sənayedə tətbiqi Naxçıvanda Texnologiyalar Parkının yaradılmasını zəruri etmiş, bununla bağlı müvafiq sərəncam imzalanmışdır.

Muxtar respublikada inkişafın əsas prioritet istiqaməti təhsil sahəsidir. Bu sahədə həyata keçirilən islahatlar təhsil quruculuğunun miqyasının genişliyi və təhsilin inkişafına yönəlmiş layihələrin və dövlət proqramlarının uğurlu icrasıdır. Qeyd edək ki, muxtar respublikada yeni tikilmiş və əsaslı təmir olunmuş, yüksək maddi-texniki imkanlarla təchiz edilmiş 211 tam orta məktəb, 3 ali məktəb, 4 orta ixtisas məktəbi, 2 peşə liseyi, 3 peşə məktəbi, 26 uşaq-musiqi bədii sənətkarlıq və incəsənət məktəbi fəaliyyət göstərir.

Tarixi irsin qorunması istiqamətində aparılan kompleks tədbirlər isə muzey quruculuğu, mədəni inkişafla bağlı islahatlar, keçirilən mədəni-kütləvi tədbirlər və Naxçıvanın çoxəsrlik mədəni inkişafı ilə bağlı dünya miqyasında aparılan təbliğat işləridir. Muxtar respublikada fəaliyyət göstərən 31 muzeydə 140 minə yaxın maddi-mədəniyyət nümunəsi qorunur.

Məqsədyönlü islahatların aparılması, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvan sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qorumaqdadır. İslam mədəniyyətinin paytaxtı və ölkəmizin Gənclər paytaxtı kimi mühüm tarixi missiyanı yerinə yetirən Naxçıvanda iqtisadi və sosial sahələrin inkişafını təmin edən tədbirlər davam etdirilir, dinamik inkişaf qorunub saxlanılır.

Muxtar respublikada aparılan quruculuq-abadlıq işləri, muzeylər, çoxəsrlik tarixi abidələr, inkişaf etmiş infrastruktur, modern hotellər şəbəkəsi, istirahət mərkəzləri, kənd və dağ turizmi üçün münbit ərazilərin və şəraitin formalaşdırılması Naxçıvanı həm də turizm üçün cəlbedici bir məkana çevirmişdir. Belə ki, təkcə ötən il Naxçıvana yarım milyona yaxın turist səyahət etmişdir. Böyük Britaniyada nəşr olunan dünyanın ən məşhur səyahət jurnalı olan "Vanderlust" Naxçıvan şəhərini dünyanın səyahət edilən 50 ən təhlükəsiz və gözəl şəhərləri sırasına daxil etmişdir.

Prezident İlham Əliyevin xüsusi sərəncamı ilə yaradılan və maddi-texniki təchizatı gündən-günə güclənən Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu bu gün, sözün əsl mənasında, düşmənə göz dağıdır. Bu ordunun keçirdiyi əməliyyatlar nəticəsində yüzlərlə hektar Vətən torpağı düşmən işğalından azad edilmiş və yararlı hala gətirilərək bölgə əhalisinin rifahına xidmət edir.

Vətənimizin ayrılmaz parçası olan Naxçıvan bu gün öz intibah dövrünü yaşayır. Naxçıvan əhalisi gələcəyə böyük inamla baxır və bugünkü nailiyyətləri gələcək müvəffəqiyyətlərin təminatı kimi görür.

Təsadüfi deyil ki, dünyanın 70 ölkəsinin 5 mindən artıq şirkət və təşkilatını birləşdirən "Caspian European Club" Azərbaycanda həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirdiyi zaman Naxçıvan Muxtar Respublikası ən yüksək nəticə göstərərək liderliyə yüksəlmişdir.

Göründüyü kimi, 30 ilə yaxın blokada şəraitində yaşamasına baxmayaraq, uğurlu dövlət siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası hərtərəfli və dayanıqlı inkişafa nail olmuş və bu proses indi də davam etməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Ümummilli Liderimizin müəyyən etdiyi quruculuq xəttini ölkəmizin bütün regionları kimi, Naxçıvan Muxtar Respublikasını da inkişaf və tərəqqi yoluna çıxardığını xüsusi vurğulayaraq deyir: *"Biz Ümummilli Liderin yolu ilə gedərək doğma diyarımızı onun görmək istədiyi kimi qurmağa, inkişaf etdirməyə çalışmışıq"*.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikanın dayanıqlı inkişafı və tərəqqisi ilə bağlı fikirlərini belə ifadə edir: *"...Naxçıvan uğurla, sürətlə inkişaf edir. Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm"*.

***Surə SEYİD,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri***

Elm xadimi

# Azərbaycanda iqtisad elminə dəyərli töhfə verən alim

**İstedadı, zəhmətkeşliyi, yüksək mənəvi və əxlaqi keyfiyyətləri ilə elmin zirvəsinə ucalmış görkəmli alim, AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Teymur Süleyman oğlu Vəliyev Azərbaycan iqtisad elminin yaradıcılarından biridir. 1926-cı ildə Ağdamın Seyidli kəndində anadan olmuş Teymur Vəliyev Azərbaycanın ilk iqtisadçı alimlərindən biri kimi ömrünü respublikamızda iqtisad elminin və təhsilinin inkişafına həsr etmişdir. O, Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət göstərmişdir.**



Teymur Vəliyev 1953-cü ildən başlayaraq respublikanın müxtəlif ali məktəblərində siyasi iqtisaddan (iqtisadi nəzəriyyədən) dərs demiş, gənc nəslin iqtisadi təfəkkürünün formalaşmasında böyük xidmətlər göstərmişdir. Xüsusi qeyd edilməlidir ki, Azərbaycanda iqtisadiyyat elmi üzrə doktorluq dissertasiyası müdafiə edən ikinci şəxs məhz Teymur Vəliyev olmuşdur.

Əməkdar elm xadiminin yaradıcılıq fəaliyyəti çoxsahəli və genişdir. Təsadüfi deyil ki, onu iqtisad elminin zirvəsini fəth etmiş alim adlandırırdılar. Teymur Vəliyevin müxtəlif problemləri əhatə edən 150-dən artıq elmi əsəri bu gün də öz aktuallığı ilə fərqlənir. Onun elmi potensialının yüksək olmasını bu gün hamı etiraf edir. İstər iqtisad, istərsə də ictimai, humanitar və təbiət elmlərini dərindən bilən Teymur Vəliyev geniş dünyagörüşlü alim imicini qazanmışdı. Elmin müxtəlif sahələrini təmsil edən mütəxəssislər daim ondan məsləhətlər alır və hər dəfə də dəmir məntiqinə, ensiklopedik biliyinə heyran qalırdılar.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Teymur Vəliyevin elmi yaradıcılığı daha da genişlənib zənginləşdi. Onun 1999-cu ildə nəşr olunan "İqtisadi nəzəriyyə" kitabı ali məktəb tələbələri üçün yeganə dərslik olmuşdur. Həmin il Teymur müəllimin "İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü" adlı monoqrafiyası da çapdan çıxmışdır.

Respublikada iqtisad elmi sahəsində ən məhsuldar alim olan professor Teymur Vəliyevin 2000-2002-ci illərdə alim həmkarları ilə birgə yazdığı "İzahlı iqtisadi terminlər" adlı lüğət kitabı, "Azərbaycan iqtisadi fikir tarixi", "Ümumi iqtisadi nəzəriyyə" və başqa əsərləri iqtisadçılara qiymətli töhfədir. Onun orta məktəblərin IX-XI sinifləri üçün nəzərdə tutulan "İqtisadiyyatın əsasları" dərsliyi də mütəxəssislər tərəfindən yüksək dəyərləndirilir.

Əsl vətənpərvər, müdrik ağsaqqal olan Teymur Vəliyev iqtisadiyyat elmi sahəsində beynəlxalq aləmdə də tanınmış alim idi. O, bir çox beynəlxalq konfranslarda, simpoziumlarda, elmi forumlarda Azərbaycanı ləyaqətlə təmsil etmişdir. Dəfələrlə Moskvada, Kiyevdə, Çexoslovakiyada, Rumıniyada, Danimarkada keçirilən beynəlxalq konqres, simpozium və konfranslarda iqtisadi məsələlərə dair elmi-nəzəri məruzələrlə çıxış etmişdir.

Elm aləmində böyük nüfuz sahibi olan Teymur Vəliyev insanlarla ünsiyyətdə nə qədər mehriban, qayğıkeş olsa da, işində bir o qədər ciddi və tələbkar idi. O, gənc iqtisadçılar üçün lazımlı bir alim idi. Fəxrlə deməliyik ki, bu gün Azərbaycan iqtisadiyyatında rəhbər vəzifələr tutan əksər iqtisadçıların peşəkar mütəxəssis kimi formalaşmasında professor Teymur Vəliyevin böyük rolu olmuşdur. O, iqtisadiyyat elmi sahəsində elmi-pedaqoji kadrların hazırlanmasında xeyli qüvvə sərf etmiş və onun rəhbərliyi altında 19 aspirant namizədlik dissertasiyası yazmış və müvəffəqiyyətlə müdafiə etmişdir. O, həm də iqtisad elmləri üzrə 15 doktorluq və 17 namizədlik dissertasiyasına rəsmi opponentlik etmişdir.

Maraqlı və zəngin həyat yolu keçmiş Teymur Vəliyev uzun müddət SSRİ AAK-ın üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisad İnstitutunda doktorluq dissertasiyası üzrə ixtisaslaşdırılmış müdafiə şurasının həmsədri, eyni zamanda Az.DİU-da ixtisaslaşdırılmış müdafiə şurasının sədri olmuşdur.

Yüksək təşkilatçılıq qabiliyyəti ilə seçilən Teymur Vəliyev uzun illər respublikamızın ali məktəblərində rəhbər vəzifələrdə çalışmışdır. O, 1966-cı ildən Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda tədris işləri üzrə prorektor, 1971-ci ildən Azərbaycan Dövlət Universitetində 12 il tədris işləri üzrə prorektor, 1992-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində 8 il elmi işlər üzrə prorektor vəzifəsində işləmişdir.

Teymur Vəliyev iqtisad elminin inkişafında səmərəli xidmətlərinə görə Azərbaycan Respublikası Ali Sovetinin fəxri fərmanları ilə təltif edilmişdir. 1981-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1983-cü ildə Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Böyük vətənpərvər olan Teymur Vəliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlanan vaxtdan öz qələmi ilə ermənilərə qarşı mübarizəyə qalxmış, onların əsassız iddialarını daim ifşa etmiş, Azərbaycanın haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırmışdır. Bu münaqişənin bünövrəsini qoyan Aqanbekyanı telekörpü vasitəsi ilə debatda ifşa etmiş, ermənilərin iç üzünü açmış, onların böhtan dolu yalanlarını bütün xalqlara çatdırmışdır.

Birinci Qarabağ savaşı dövründə Teymur Vəliyev dəfələrlə cəbhə bölgəsinə getmiş, döyüşən dəstələrə maddi və mənəvi dəstək olmuşdur. Qarabağlılar onu xeyirxah, nüfuzlu bir ağsaqqal kimi tanıyırdılar.

Vətənini, torpağını canı kimi sevən Teymur Vəliyev 2002-ci ildə Qarabağ həsrəti ilə dünyasını dəyişdi. Yaşasaydı, bu il 95 yaşı olardı. Elmimizə ləyaqətlə, vicdanla xidmət etmiş Teymur Vəliyev onu tanıyanların qəlbində həmişə yaşayacaq, Azərbaycan iqtisad elminin bünövrəsini qoyanlardan biri kimi xatirəsi böyük hörmət və ehtiramla yad ediləcək.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz Qarabağı ermənilərdən azad etməklə sınmış qürurumuzu da bərpa etdi. Ruhun şad olsun Teymur müəllim, məzarında rahat yat. Qarabağ bizimdir!

***Şöhlət KƏRİMOV,***
***Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru***

# Gəncədə "Nizami Gəncəvi ili"nə geniş hazırlıq işləri görülür



**Məlumdur ki, Nizami Gəncəvi ömrü boyu dövrünün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb. O, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii estetik düşüncə tarixini zənginləşdirən bədii söz sənəti incilərini də məhz burada ərsəyə gətirib.**

Bu zəngin irsin öyrənilməsi və təbliği sahəsində ölkəmizdə xeyli işlər görülüb, o cümlədən elmi-bədii məqalələr yazılıb, kitabları mükəmməl tərtibatda və kütləvi tirajla çap edilib, dövlətimizin mədəniyyət və ədəbiyyata olan qayğısı nəticəsində Nizami Gəncəvinin ədəbiyyatda yaddaqalan obrazı yaradılıb.

Bu il dahi şairin anadan olmasının 880 ili tamam olur. Bununla bağlı Prezident İlham Əliyev 2021-ci ili ölkəmizdə "Nizami Gəncəvi ili" elan etmiş və yubiley tədbirlərinin yüksək səviyyədə keçirilməsi üçün Nazirlər Kabinetinə tapşırıqlar vermişdir.

Şairin yubileyi Gəncədə də geniş qeyd olunacaq. Şəhər Mədəniyyət İdarəsinin rəisi Sənan Hacıyev:

- Şərq mədəniyyətinə böyük irs bəxş edən Nizami Gəncəvi yalnız şair kimi qiymətli deyil. Dünya səviyyəli mütəfəkkir, əslində, böyük bir ensiklopediyadır. Məhz bu səbəbdən şairin məqbərəsinin yerləşdiyi ərazi elm, bilik, universitet və kitabxana mərkəzinə çevrilmişdir. "Nizami Gəncəvi ili"ndə kütləvi tədbirlərin həyata keçirilməsi həm mədəniyyət, həm təhsil, həm də turizmin inkişafı baxımından olduqca faydalıdır. Söz yox ki, 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi yaradıcılığı ədəbiyyatımıza, poeziyamıza işıq salan Nizami Gəncəvi dühasının irsinin öyrənilməsi və təbliği üçün yeni imkanlar açacaqdır. Odur ki, yubiley ili ilə əlaqədar şəhər icra hakimiyyətində və mədəniyyət idarəsində geniş tədbirlər planı tərtib edilmiş və həmin tədbirlərin mütəşəkkil keçirilməsi üçün təşkilati işlər görülmüşdür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

**2020-ci ildə Azərbaycan iqtisadiyyatı, məşhur alim Nassim Talebin dediyi kimi, "antikövrəklik" göstərdi, şoklara qarşı adekvat reaksiyası ilə bütün çağırışlara cavab verdi və immunitetini daha da gücləndirdi. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin rəhbəri, iqtisad elmləri doktoru Vüsal Qasımlı bildirib ki, "Gallup International"ın son sorğularının nəticəsinə əsasən, dünyada iqtisadi nikbinlik indeksinə görə, Azərbaycan ilk üçlükdə qərarlaşıb.**

V.Qasımlı bildirib ki, 2020-ci ildə Azərbaycan iqtisadiyyatında geriləmə fonunda bəzi sahələrdə artımın keyfiyyəti yüksəlib: "İqtisadi geriləmənin 4 faizdən artıq olduğu halda qeyri neft-qaz sənayesinin modern texnologiyalar hesabına 11 faizdən artıq yüksəlməsi bu sektorun iqtisadiyyatda xüsusi çəkisini 16 faizdən çox edib. Daha çox yeni dəyər yaradan sənayeləşmə isə iqtisadiyyatın rəqabət qabiliyyətini artırır, Harvard Universitetinin hesabladığı "iqtisadi mürəkkəblik indeksi"ni yüksəldir. Emal sənayesində kimya, əczaçılıq, metallurgiya, elektron, optik, rezin, plastik kütlə məhsullarının istehsalının əhəmiyyətli artımı idxalın əvəzlənməsi, ixracyönümlülük və dəyər zəncirlərinə qoşulmaq baxımından vacibdir. Neft hasilatının azalması fonunda TAP-ın istifadəyə verilməsi ilə Azərbaycanda qaz hasilatının ilbəil yüksəlməsi və iqtisadi artımı dəstəkləməsi proqnozlaşdırılır".

istiqamətində görülən işlər mühüm əhəmiyyət kəsb edir".

2020-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin eyni vaxtda bir neçə böhranın uğurla idarəedilməsi təcrübəsini ortaya qoyduğunu deyən iqtisadçı alim vurğulayıb ki, ölkəmiz ötən il iqtisadi geriləmənin və sosial rifahın düşməsinin daha kəskin olmasının qarşısını almaq üçün yalnız öz resurslarına əsaslanmış, manatın sabitliyini qorumuş, inflyasiyanı aşağı həddə saxlamış, dövlət borcunun artmasına və strateji valyuta ehtiyatlarının kəskin azalmasına imkan verməmişdir: "Hətta maliyyə-bank sektorunda 2020-ci ilin ilk yarısında yaranan neqativ trendlər ilin ikinci yarısında müsbətə doğru dəyişmiş, böhran bu sektora "sıçraya" bilməmişdir. Keçən il "fiskal fəza"dan istifadə etməklə dövlət büdcəsində 2,3 milyard manatlıq maliyyə təminatının yaradılması və Mərkəzi

## Azərbaycan Qarabağ zəfərini iqtisadi yüksəlişə çevirməyə qadirdir

İcraçı direktor daha sonra bildirib ki, aqrar sahədə də artım daha çox ekstensiv deyil, intensiv yollarla baş verib. Belə ki, pambıq, tütün, tərəvəz, şəkər çuğunduru, taxıl kimi sahələrdə istehsalın artması məhsuldarlığın yüksəlməsi hesabına olub. Keçən il həm də innovativ sahə olan informasiya və rabitə xidmətləri də artım tempini qoruya bilib: "2020-ci ildə pandemiya səbəbindən dərin geriləməyə məruz qalmış turizm, nəqliyyat, logistika, tikinti, ictimai iaşə, ticarət kimi sahələrin isə bu ildən başlayaraq bərpası dövlət dəstəyi, sahibkarlıq təşəbbüsləri, sərmayə cəlbi, yeni bazarlara çıxış və yeni biznes modellərinin tətbiqi ilə mümkündür", - deyə o, nəzərə çatdırıb.

V.Qasımlının sözlərinə görə, keçən il iqtisadi artımın keyfiyyət dəyişikliyi ilə yanaşı, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması və struktur islahatları baxımından da addımlar atılmışdır: "Siyasi dialoqun dərinləşməsi, kadr islahatlarının aparılması, korrupsiya ilə mübarizə, yeni parlamentin formalaşdırılması, Nazirlər Kabinetinin işinin təkmilləşdirilməsi, yeni iqtisadi siyasət çərçivəsi - İqtisadi Şuranın və işğaldan azad edilən ərazilər üzrə Əlaqələndirmə Qərargahının yaradılması, su resurslarının idarə edilməsinin təkmilləşdirilməsi, Dövlət İnvestisiya Holdinqinin və YAŞAT fondunun fəaliyyətə başlaması, dövlət idarəçiliyində səmərəliliyin, dövlət nəzarətinin təşkili və icra intizamına əməl olunması

Bank tərəfindən ünvanlı likvidlik dəstəyinin göstərilməsi bütövlükdə pandemiya ilə mübarizədə öz sözünü demişdir. 2019-cu ildə həyata keçirilən inqilabi sosial islahatların 2020-ci ildə 3 milyard manatlıq maliyyə yükü ilə yanaşı, həm də 3,5 milyard manat civarında antipandemiya büdcəsi formalaşdırılmışdır. Beləliklə, iqtisadiyyatın daha az ziyan çəkməsi onun daha tez bərpası imkanını yaratmışdır".

Sonda Qarabağın meşə, su, torpaq, faydalı qazıntı və qeyri-maddi resursları ilə Azərbaycan iqtisadiyyatının dövriyyəsinə cəlb edilməsi, həmçinin yeni reallığa uyğun regional nəqliyyat-kommunikasiya imkanlarının genişlənməsinin böyük artım potensialına malik olduğunu deyən V.Qasımlı bildirib ki, Vətən müharibəsində qazandığımız zəfər hesabına yaranan yeni reallıq ölkə iqtisadiyyatının növbəti 10 ildə iki dəfə artırılmasına imkan verir: "Xüsusən də Qarabağda yaşıl enerji, dağ-mədən, metallurgiya, emal sənayesi, aqrar sahə və turizm kimi sahələr həm dövlət, həm də özəl yerli və xarici sərmayələr hesabına inkişaf etdiriləcək. Dünya Bankının "Doing Business" hesabatında dünyanın ən islahatçı 10 ölkəsindən biri olan Azərbaycanın qələbəmizi sistemli və davamlı islahatlarla yeni imkanlara çevirməsi mümkündür".

***"Azərbaycan"***

# "Cənub qaz dəhlizi" yeni əməkdaşlıq formatının təməlini qoyur




## Layihədə bütün iştirakçı tərəflərin maraqları təmin olunub

*Əvvəli 1-ci səh.*

"Cənub qaz dəhlizi"nin təməli 2014-cü il sentyabrın 20-də, "Əsrin müqaviləsi"nin 20 illiyi qeyd olunan gün Səngəçal terminalında qoyulub. Layihə geniş beynəlxalq əməkdaşlıq şəraitində gerçəkləşib. Odur ki, dörd seqmentdən ibarət bu nəhəng layihənin uğurla həyata keçirilməsi bütün iştirakçı dövlətlərin və şirkətlərin, genişmiqyaslı işlərdə əməyi olan hər kəsin nailiyyətidir.

Adətən belə qlobal layihələrin reallaşması çox vaxt tələb edir. Dörd hissəsinin hər birinin özlüyündə çox böyük bir layihə olduğunu nəzərə alsaq, "Cənub qaz dəhlizi"nin cəmi 6 ilə reallaşması əslində bir qələbədir. Onu da qeyd edək ki, 2015-ci ildən başlayaraq "Cənub qaz dəhlizi"nin ildə bir dəfə toplaşan Məşvərət Şurasının altı görüşünün hamısı Bakıda keçirilib. Bu da layihəyə Azərbaycanın liderlik etdiyinin daha bir təsdiqidir.

"Cənub qaz dəhlizi"nin rəsmi açılışı 2018-ci il mayın 29-da Səngəçal terminalında oldu. Layihənin ilk iki hissəsinin hazır olması buna imkan verdi. Belə ki, "Şahdəniz-2"dən qaz hasilatına başlandı və CQBK-nın (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsi yekunlaşdı. Bundan az sonra - 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) istifadəyə verildi.

Ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensatdan ibarət olan "Şahdəniz" dünyanın ən nəhəng karbohidrogen yataqlarındandır. Məhz bu yatağın uğurla işlənməsi və istismarı sayəsində Azərbaycan dünyada qaz ixrac edən ölkə kimi tanınıb.

"Şahdəniz" yatağı "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyidir. Hazırda burada iki hasilat platforması istismar olunur. Odur ki, "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarını "Şahdəniz"in qoşa qanadı da adlandırırlar. "Şahdəniz Alfa" 15 ilə yaxındır yatağın işlənməsinin birinci mərhələsi çərçivəsində fəaliyyət göstərir. "Şahdəniz Bravo" isə layihənin ikinci mərhələsi çərçivəsində 2018-ci ildə işə salınıb.

"Şahdəniz"də bp (operator - 28,8 faiz), TPAO (19 faiz), AzŞD (10 faiz), Cənub Qaz Dəhlizi Apstrim (6,7 faiz), PETRONAS (15,5 faiz), LUKOYL (10 faiz), NİKO (10 faiz) şirkətləri iştirak edirlər.

"Cənub qaz dəhlizi"ni yaradan üç kəmərdən birincisi 42 düymlük CQBK-dır. Ümumi uzunluğu 692 kilometr olan bu xəttin 443 kilometri Azərbaycanın, 249 kilometri Gürcüstanın ərazisindən keçir. Kəmər "Şahdəniz" yatağından hasil edilən qazı Gürcüstana çatdırmaq, eləcə də Gürcüstan-Türkiyə sərhədinə nəql etmək məqsədilə çəkilib. CQBK 2006-cı ildən fəaliyyət göstərir.

CQBK-nın genişləndirilməsi Azərbaycan və Gürcüstan ərazilərindən keçən yeni 48 düym diametrli boru kəmərinin, həmçinin Gürcüstanda 2 yeni kompressor stansiyasının inşasını əhatə edib. Yeni kəmərin uzunluğu təqribən 489 kilometr təşkil edir (Azərbaycanda 424, Gürcüstanda 63, TANAP ara bağlantısında 2 kilometr). Genişləndirilmiş CQBK-nın fəaliyyətə başlaması ilə "Cənub qaz dəhlizi" ilə mavi yanacağın nəqlinə start verilib.

CQBK-nın sərmayədarları bunlardır: bp (28,8 faiz), TPAO (19faiz), AzSCP (10 faiz), Cənub Qaz Dəhlizi Midstrim (6,7 faiz), PETRONAS (15,5 faiz), LUKOYL (10 faiz), NİKO (10 faiz).

Son zamanlar dünyada baş verən COVID-19 pandemiyası, həmçinin Ermənistan tərəfindən Azərbaycana edilən hücumlar və 44 günlük Vətən müharibəsi "Cənub qaz dəhlizi"nin yekunlaşmasına mane ola bilmədi. Beləliklə, Avropanın enerji bazarını şaxələndirəcək və onun enerji təhlükəsizliyini gücləndirəcək yeni enerji təchizatı layihəsi uğurla tamamlandı. Bu, ölkəmiz üçün də xüsusi əhəmiyyətli hadisədir. Çünki Azərbaycan artıq Avropa bazarı üçün təbii qaz ixracatçısıdır və regionlararası iqtisadi əməkdaşlığa, enerji mənbələri və marşrutlarının şaxələndirilməsinə öz sanballı töhfəsini verir.

2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev demişdir: "Cənub qaz dəhlizi" tam istismara verilmişdir. Onun son seqmenti olan TAP istismara verildi. Azərbaycan qazı tarixdə ilk dəfə olaraq artıq Avropa məkanındadır. Biz Avrasiyanın enerji xəritəsini yenidən tərtib etdik. Biz bir-birinə bağlı olan 3500 kilometr uzunluğunda 3 qaz kəmərini inşa etdik. "Şahdəniz-2" layihəsini istismara verdik və artıq Avropa istehlakçıları Azərbaycan qazını alırlar. Bu həm onlar, həm də bizim üçün faydalıdır. Eyni zamanda digər layihələr üzrə də uğurlu işlər aparılıb. Əminəm ki, bu layihələrin işlənməsi bizə əlavə dividendlər gətirəcək - həm iqtisadi, həm siyasi".

Azərbaycan qazı yeni mənbədir və "Cənub qaz dəhlizi" yeni enerji damarıdır, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan layihədir. Bu layihənin həyata keçirilməsində maraqlar balansı gözlənilib, yəni iştirak edən bütün tərəflərin maraqları təmin edilib ki, bu da çox önəmli amildir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Alman mətbuatı Azərbaycanın Avropaya qaz ixracına dair məqalələr dərc edib

**Almaniyanın "zeit.de" portalında "Azərbaycan Avropaya qaz ixracına başlayıb" başlıqlı məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə Avropa qaz bazarının təxminən üçdəbirinə indiyə qədər Rusiyanın nəzarət etdiyi, indi isə Azərbaycanın TAP boru kəməri vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstana təbii qaz nəqlinə başladığı bildirilib. SOCAR şirkətinin verdiyi məlumata görə, qeyd olunan ölkələrin istehlakçıları artıq Azərbaycan qazından istifadə ediblər. Məqalədə TAP-ın Azərbaycanın "Şahdəniz-2" adlı nəhəng qaz yatağından təbii qaz nəql etdiyi, 3500 kilometrə yaxın məsafəni əhatə edən "Cənub qaz dəhlizi" boru kəməri layihəsinin tərkib hissəsi olduğu və Azərbaycan qazının Rusiya üçün rəqabət yaradacağı vurğulanır. Əlavə olunub ki, Türkiyə artıq uzun illərdir ki, Azərbaycanın təbii qaz alıcılarından biridir, Avropa İttifaqı isə TAP layihəsini Rusiyanın enerji qaynaqlarından asılılığın azaldılması məqsədilə dəstəkləyir. Məqalədə Ermənistan-Azərbaycan münaqişəsi barədə məlumat verilir. Azərbaycanın ötən il baş vermiş 44 günlük müharibə zamanı ərazilərinin böyük hissəsini geri aldığı qeyd olunur.

Azərbaycanın Avropaya qaz ixracına başlamasına dair eyni məzmunlu məlumat, həmçinin "dpa" xəbər agentliyi tərəfindən, eləcə də "Der Neue Tag" qəzetində, "onvista.de" portalında dərc olunub.

# Dünya yenə heyran qalacaq



## Bu dəfə Qarabağı başdan-başa yenidən qurmağımıza, cənnətə döndərməyimizə

*Əvvəli 1-ci səh.*

Bu, reallıq idi ki, arxalı düşmən qarşısında zəif idik. Düşməndən qisas almaq, işğal altındakı torpaqlarımızı azad etmək üçün ciddi hazırlıq görmək, müasir silahlarla təmin edilmiş güclü ordu yaratmaq vacib idi. Əlbəttə, bu, zaman tələb edirdi. Və həmin zaman 2020-ci il sentyabrın 27-də yetişdi.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev siyasi fəaliyyətində Qarabağ münaqişəsinin dəyişməz prioritet olduğunu dəfələrlə bəyan etmişdir. Həmişə bu mövzudan danışarkən əminliklə vurğulayırdı ki, mən nəyi, nə zaman və necə etməyi yaxşı bilirəm. Bu üstüörtülü mesajda böyük məntiqin, güclü iradənin ifadə olunduğunu ən böyük hakim olan zaman birmənalı şəkildə təsdiqlədi.

Əlbəttə, biz Ermənistan silahlı qüvvələrinin çoxsaylı təxribatlarına cavab olaraq Qarabağın işğaldan azad edilməsi uğrunda müqəddəs savaşa bundan əvvəlki dönəmlərdə də başlaya bilərdik. Amma nəticəni proqnozlaşdırmaq çətin idi. Vətən müharibəsinə başlamaq üçün ən əlverişli məqam seçilməliydi. Bunu Prezident İlham Əliyev böyük müdrikliklə bacardı. Qəribə də olsa, bu məqamda kommunist ideologiyasının banısı Leninin oktyabr inqilabına başlamaq haqqında "Bu gün tezdir, sabah gec" fikri yada düşür. Heç şübhəsiz, müxtəlif zamanların siyasi liderlərinin söylədikləri fikirlərdə paralellər aparmaq istəyindən uzağıq. Amma doğru olan odur ki, siyasi uzaqgörənliklə verilən, reallıqdan qaynaqlanan mühüm tarixi qərarların nəticəsi gözlənilən olur, necə ki, biz bunu zəfərlə başa çatdırdığımız Vətən müharibəsində gördük.

Qələbə sevincinin hərarəti buz bağlamış Qarabağ nisgilini əritdi. Ürəyimiz açıldı, gözümüz güldü. Sevincə, şənliyə yadırğamış qubarlı könüllərimizin çiçəyi çırtladı. Gözyaşlarımız selə döndü. Amma bu dəfə qələbənin doğurduğu sevinc gözyaşları ilə bir şəhid anasının oğlunun məzarı başında dediyi sözlər yaddaşımıza həkk olundu: "Daha bundan sonra ağlamayacağam. Şükur olsun Allaha ki, şəhid balalarımızın qisası layiqincə alındı. Qəhrəman övladlarımız Qarabağı işğaldan azad etdilər. Biz qalib gəldik. İndi sıra erməni analarındadı. Qoy onlar özgə torpaqlarında döyüşüb ölən oğulları üçün ağlasınlar, bir ömür boyu yas saxlasınlar".

Qələbə sevincini yaşayan xalqımız sabaha böyük ümidlərlə baxır. Artıq Qarabağda böyük bərpa və quruculuq işlərinə start verilmişdir. İşğaldan azad edilmiş ərazilərdə tikinti-quruculuq işləri gündən-günə vüsət almaqdadır. Bir yandan ərazilər minalardan təmizlənir, bir yandan yeni yollar çəkilir, körpülər salınır, müxtəlif infrastruktur layihələri həyata keçirilir.

Bərdədən Ağdama dəmir yolu xəttinin çəkilməsi sürətlənir. Müasir tələblərə cavab verən Füzuli-Şuşa avtomobil yolunun tikintisi də həmçinin. Suqovuşana çəkilən yolun xeyli hissəsi artıq hazırdır.

Qarabağı yenidən qurmaq, sözün həqiqi mənasında cənnətə döndərmək üçün ölkəmizdə bütün qüvvələr səfərbərdir. Tikinti-bərpa, abadlıq-quruculuq işlərinə xarici şirkətlər cəlb edilmişdir. Əminik ki, bütün bunların sayəsində düşmənlərimizin 30 il ərzində viran qoyduqları Qarabağda bütün kəndlər, şəhərlər, qəsəbələr yüksək zövqlə, fəal vətəndaş mövqeyilə yenidən qurulacaq. Milli-mənəvi dəyərlərimizin, musiqimizin beşiyi olan Şuşa ən yaxın zamanda yenidən regionun mədəniyyət paytaxtına çevriləcək. Qarabağ əsrarəngiz təbiət gözəllikləri, 5 ulduzlu hotelləri, böyük idman və əyləncə mərkəzləri ilə, təmiz havası, saf suyu, qonaqpərvər adamlarıyla müasir turizm mərkəzi kimi tez bir zamanda bütün dünyada şöhrət qazanacaq.

Biz bunları yaxın gələcəkdə reallaşdıracağıq, qarşıya qoyulmuş hədəflərə ən qısa zamanda uğurla çatacağıq. Döyüş meydanında yenilməz birliyimizin simvoluna çevrilən, düşmənin başını əzən dəmir yumruğumuzun güclü barmaqları açılıb, bu torpaqdan güc alan hərarətli əllərə çevriləcək. Biz bu əllərin qüdrəti ilə, vətən sevdalı ürəklərin istəyi ilə külli-Qarabağı başdan-başa yenidən quracağıq. Elə quracağıq ki, bütün dünya bu gözəlliyə, hünərə heyran qalsın.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## İxracatçılarla görüş keçirilib

**Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə pomidor istehsalı və ixracı sahəsində fəaliyyət göstərən sahibkarlarla onlayn formatda görüş keçirilib.**

Dövlət başçısının tapşırığından irəli gələn məsələlərin həlli məqsədilə İqtisadiyyat Nazirliyinin müvafiq qurumları - AZPROMO və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) rəhbər şəxslərinin, Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri və Mərkəzi Avropa ölkələrindəki ticarət nümayəndələrinin iştirakı ilə təşkil olunmuş görüşdə ixracın şaxələndirilməsi, ixrac potensialının artırılması, satış üçün yeni prioritet bazarların araşdırılması məsələləri müzakirə edilib.

20-dən çox şirkətin nümayəndəsinin və 40-a yaxın fərdi sahibkarın iştirak etdiyi tədbirdə AZPROMO-nun rəhbəri vəzifələrini icra edən Yusif Abdullayev ixracatçılara bu sahədə yaranmış çətinliklərin aradan qaldırılması istiqamətində İqtisadiyyat Nazirliyi tərəfindən görülən işlər və göstəriləcək dəstək mexanizmləri barədə məlumat verib, sahibkarları bu sahənin inkişafı üçün dövlət qurumları ilə sıx əməkdaşlığa dəvət edib. Görüşdə ənənəvi bazarlarla yanaşı, Körfəz və Avropa ölkələrə satışının həyata keçirilməsi istiqamətində işlərin başlandığı bildirilib.

Sonda ölkənin müxtəlif regionlarda pomidor istehsalı sahəsində fəaliyyət göstərən ixracatçıların fikirləri dinlənilib, yeni bazarlara ixrac prosedurları ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.

## Qobustanda kənd məktəbi üçün yeni bina tikilir

**Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ayrılan vəsait hesabına Qobustan rayonunun ən iri yaşayış məntəqələrindən olan Sündü kəndində Ş.Şikarov adına tam orta məktəb üçün yeni bina inşa edilir.**

AZƏRTAC xəbər verir ki, tədris ocağı üçün tikilən yeni bina ikimərtəbəli, 360 şagirdlikdir. Müasir arxitektura üslubunda inşa edilən məktəb binasında tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılacaq.

Artıq binada hörgü işləri başa çatıb. Hazırda binanın daxilində suvarma və rəngləmə işləri aparılır, dam örtüyü, döşəmə və tavan vurulur. Məktəb ərazisinin hasarında hörgü və suvaq işləri də başa çatmaq üzrədir.

Tədris ocağının yeni dərs ilinədək istifadəyə verilməsi nəzərdə tutulub.

## Şəkər çuğundurunun güzəştli sığortası başlayıb

**Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi vasitəsilə şəkər çuğunduru sahələrinin sığortalanması şərtləri açıqlanıb.**

Aqrar Sığorta Fondu bildirir ki, fermerlər və iş adamları 2021-ci ildə şəkər çuğunduru sahələrinin sığortalanması üçün artıq indidən müraciət edə bilərlər.

Hazırda şəkər çuğunduru Azərbaycanın əksər rayonlarında, xüsusilə Tovuz, Şəmkir, Hacıqabul, Beyləqan, İmişli, Füzuli, Biləsuvar və digər bölgələrdə əkilir. Şəkər çuğunduru sahələrinin sığortalanması zamanı bitkinin məhsuldarlığı, qiyməti, yerləşdiyi ərazi və seçilən sığorta zərfi nəzərə alınacaq.

Qaydalara əsasən, hesablama aparılması üçün şəkər çuğundurunun 1 hektar üçün məhsuldarlıq və məhsulun qiyməti normaları müəyyən edilib. Belə ki, çuğundurun bir hektar üçün məhsuldarlıq norması 8-930 sentner arasında, qiymət isə 30-60 manat/sentner arasında müəyyən olunub.

## Magistral və respublika əhəmiyyətli 2 avtomobil yolunun tikintisi yekunlaşıb



Prezidentin Yevlax-Zaqatala-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun Xaldan-Şəki hissəsinin əsaslı şəkildə yenidən qurulması ilə bağlı tapşırıq və sərəncamlarına əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan təmir-tikinti işləri yekunlaşıb.

Magistralın yenidən qurulan hissəsinin uzunluğu 46 km-dir. Yolun sözügedən hissəsi II texniki dərəcəyə uyğun olaraq inşa edilib. Yolun ümumi eni 15 metrdir. Bura 7.5 metr enində hərəkət hissə və hər bir istiqamət üzrə 3.75 metr enində çiyinlər daxildir.

"M-5 Yevlax-Zaqatala-Gürcüstan Respublikası dövlət sərhədi avtomobil yolunun yenidən qurulması" layihəsi çərçivəsində magistralın 46-cı km-dən ayrılan və Şəki şəhərinə qədər uzanan 12 km-lik respublika əhəmiyyətli yolun da III texniki dərəcəyə uyğun yenidən qurulması yekunlaşıb. 2 hərəkət zolaqlı olmaqla yolun ümumi eni 12 metrdir. Əsaslı şəkildə yenidən qurulan Yevlax-Zaqatala-Gürcüstan avtomobil yolunun Xaldan-Şəki hissəsi 2 rayonun inzibati ərazisindən keçməklə bir-neçə yaşayış məntəqəsini birləşdirir.

Xatırladaq ki, bundan öncə magistralın 40 km uzunluğa malik Zaqatala-Balakən-Mazımçay hissəsi əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdi.

## Daxili İşlər Nazirliyi Tibb İdarəsi
### 2021-ci ildə dərman preparatları, sarğı ləvazimatları və tibbi təyinatlı vasitələrin satın alınmasına dair
### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti 31.12.2021-ci ilə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz.

Əlaqələndirici şəxs: İskəndərov Nadir.
Ünvan: Bakı şəhəri, Azadlıq prospekti, 161.
Tender 1 (bir) LOT üzrə keçiriləcək.
LOT 1 - dərman preparatları, sarğı ləvazımatları və tibbi təyinatlı vasitələr

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT üzrə 200 (iki yuz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Hesab: AZ88CTRE00000000000002078508**
**VÖEN: 1700341621**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır).*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi.*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*
*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **12.02.2021-ci il saat 14:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **04.02.2021-ci il saat:12:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **15.02.2021-ci il saat 12:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Daxili İşlər Nazirliyi Tibb İdarəsi
### 2021-ci il üçün dezinfeksiya mallarının satın alınması üzrə
### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti 31.12.2021-ci ilə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz.

Əlaqələndirici şəxs: İskəndərov Nadir.
Ünvan: Bakı şəhəri, Azadlıq prospekti, 161.
Tender 1 (bir) LOT üzrə keçiriləcək.
LOT 1 - dezinfeksiya mallarının satın alınması.

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT üzrə 200 (iki yuz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Hesab: AZ88CTRE00000000000002078508**
**VÖEN: 1700341621**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır).*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi.*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*
*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **12.02.2021-ci il saat 14:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **04.02.2021-ci il, saat:12.00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **15.02.2021-ci il saat 12.00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Daxili İşlər Nazirliyi Tibb İdarəsi
### 2021-ci il üçün şəkərli diabet üzrə dərmanların satın alınmasına dair
### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti 31.12.2021-ci ilə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz.

Əlaqələndirici şəxs: İskəndərov Nadir.
Ünvan: Bakı şəhəri, Azadlıq prospekti, 161.
Tender 1 (bir) LOT üzrə keçiriləcək.
LOT 1 - şəkərli diabet üzrə dərmanların satın alınması

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT üzrə 200 (iki yuz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Hesab: AZ88CTRE00000000000002078508**
**VÖEN: 1700341621**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır).*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi.*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*
*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **12.02.2021-ci il saat 14:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **04.02.2021-ci il saat 12:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **15.02.2021-ci il saat 12:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 29.02.2020-ci il tarixli nömrəsində dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının yeni inzibati binasının müfəssəl layihələndirilməsi və tikintisi üzrə işlərin satın alınmasına dair təkliflər sorğusu üzrə Tender komissiyasının 25 dekabr 2020-ci il tarixli qərarına əsasən, Türkiyə Respublikasının **"Tekfen Construction and Installation Co., Inc" (Tekfen İnşaat ve Tesisat A.Ş.)** şirkəti qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | (012) 440-46-94, (012) 441-19-91 |
| *"Azərpoçt" ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Kaspi" MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## B İ L D İ R İ Ş

Fərdi mühafizə vasitələrinin satın alınması məqsədilə "Təmiz Şəhər" ASC tərəfindən keçirilmiş təkliflər sorğusunda ən az qiymət təklifi vermiş **"EVİM TEKSTİL" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla 194.405,00 manat məbləğində 7 yanvar 2021-ci il tarixli müqavilə imzalanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Estoniyanın Baş naziri korrupsiya qalmaqalı fonunda istefa verdi



Estoniyanın Baş naziri Yuri Ratas "Porto Franco" daşınmaz əmlak şirkətinə dövlət kreditinin verilməsi ilə əlaqədar korrupsiya qalmaqalına görə istefa verdiyini bildirib.

O, "Facebook"da yazıb: "Siyasətdə mürəkkəb vəziyyətlərin həlli üçün çox çətin seçim etmək lazım gəlir. Bu gün yaranmış vəziyyətdə mən öz dəyərlərimdən irəli gələrək, Estoniya Respublikasının Baş naziri vəzifəsindən istefa verməyi qərara almışam. Bu qərar Mərkəzçi Partiyanın idarə heyəti və fraksiyası ilə məsləhətləşmələrdən sonra qəbul edilib".

Hökumət başçısı qeyd edib ki, təqdim edilən şübhələr birmənalı olaraq təqsir demək deyil, lakin bütün iştirakçılara kölgə salır.

Ratas əlavə edib ki, onun bəyanatı faktiki olaraq mühafizəkar Xalq Partiyası və Vətən Partiyasının da daxil olduğu hazırkı hakim koalisiyanın sonu deməkdir.

Onun dediyinə görə, hazırda "Mərkəzçi Partiya Estoniya siyasətində həm müxalifətdə, həm də koalisiyada olmaq imkanını nəzərdən keçirir". Ötən gün Estoniyada hüquq mühafizə orqanları Mərkəzçi Partiya, partiyanın baş katibi Mixail Korba, maliyyə nazirinin müşaviri Kersti Kraxta, sahibkar Hillar Tederə və daha iki şəxsə şübhə irəli sürüblər. Onlar "Porto Franco" şirkətinə güzəştli kredit verməkdən şübhəli bilinirlər. Bunun üçün sahibkar siyasətçilərə yerli seçkilər üçün 1 milyon avro məbləğində ianə verməyi öhdəsinə götürmüşdür .

Bundan əvvəl Estoniyanın təhsil naziri Maylis Reps xidməti avtomobillə bağlı qalmaqaldan sonra işdən çıxarılıb. Jurnalistlər nazirin avtomobildən şəxsi məqsədlər üçün istifadə etdiyini öyrəniblər. Nazirliyin sürücüsü müntəzəm olaraq Repsin altı uşağını məktəbə və dərnəklərə aparırmış.

## ABŞ-da 70 il ərzində ilk dəfə qadın edam edildi



ABŞ-da ölkənin Ali Məhkəməsinin icazəsindən sonra 70 il ərzində qadınlara qarşı ilk ölüm hökmü icra edilib. Bu barədə "Nyu York Times" qəzeti xəbər verir.

Məhkum edilmiş Liza Montqomeri 2004-cü ildə hamilə qadının xüsusilə qəddar qətlində təqsirli bilinib.

Hökmün ötən il dekabrın 8-də İndiana ştatında icra olunması planlaşdırılırdı. Sonradan məhkəmənin qərarı ilə cəza yanvarın 12-dək təxirə salınıb. Yanvarın 11-də İndiana Məhkəməsi Montqomerinin psixi vəziyyəti ilə bağlı ölüm hökmünün icrasını federal səviyyədə təxirə salıb. Lakin ABŞ Ali Məhkəməsi yanvarın 12-də axşam saatlarında bu qərarı rədd edib.

Montqomerinin edamı İndiana ştatının Terre-Hot həbsxanasında ölümcül inyeksiya ilə həyata keçirilmişdir.

Xatırladaq ki, 2007-ci ilin oktyabrında Missuri ştatının Qərb rayonunun Dairə məhkəməsi Liza Montqomerini hamilə qadının qətlində və uşağının oğurlanmasında təqsirli bilərək ölüm cəzasına məhkum etmişdi.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və əməkdaşları Nazirlər Kabineti Aparatının Xarici iqtisadi əlaqələr şöbəsi müdirinin müavini

**RAFİK ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Bakı Şəhər Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Bakı Şəhər Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Mətanət A" şirkətinin Müşahidə Şurasının sədri Elxan Bəşirov Bakı Şəhər Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tofiq Mahmudov ailəsi ilə birlikdə Elmar və Afdandil Hüseynzadələrə anaları

**HƏBİBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sadıx Murtuzayev, Dadaş Asanov, Litvin Abasov, Kamil Məmmədov, Bəhruz Mahmudov, Bayram Əliyev və Tofiq Mahmudov Elmar və Afdandil Hüseynzadələrə anaları

**HƏBİBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4973
Sifariş 87
Qiyməti 40 qəpik